Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 4 (8027) ÇƏRŞƏNBƏ AXŞAMI, 8 yanvar 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Quba rayonunun Susay-Xınalıq avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Səkkiz min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Susay-Xınalıq avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 13,0 (on üç) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 yanvar 2019-cu il*



# Dünyanın ehtiram göstərdiyi LİDER

**Azərbaycanın nümunəsində beynəlxalq səviyyədə etiraf olunan faktlardan biri respublikamızın müstəqil siyasət həyata keçirməsidir. Bu siyasətin nəticəsidir ki, Azərbaycan dünya birliyinin fəal və qəbul edilən üzvü kimi mövqelərini gücləndirib, dünyada söz sahibinə, regionda liderə çevrilib.**

Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət milli maraqlarımızı, dövlətimizin qlobal miqyasda mövqelərini layiqincə təmin edir. Eyni zamanda, dövlət rəhbəri hər cür xarici təsirə, çirkin kampaniyaya, şərəfsiz qarayaxmaya sinə gərib, heç zaman güzəştə getməyib. Cənab Prezident dəfələrlə bəyan edib ki, yürütdüyü müstəqil siyasət və dövlətimizin milli maraqları heç bir halda kənar diktəyə məruz qalmayacaq. Prezidentin qətiyyətli mövqeyi Cənubi Qafqazda hər hansı taleyüklü məsələnin həllində, transmilli layihənin reallaşmasında Azərbaycanın iştirakı və razılığı olmadan konkret nəticə əldə edilməsi mümkünsüzdür. İndi Azərbaycan təkcə mövcud olduğu yox, MDB, Şərqi Avropa kimi böyük bir coğrafi ərazidə də əsas nüfuz sahiblərindən biri kimi çıxış edir.

***Vladimir PUTİN,***
*Rusiya Federasiyasının Prezidenti:*
- Siz həmvətənləriniz arasında və xaricdə haqlı olaraq təcrübəli və uzaqgörən siyasi xadim, öz ölkəsinin həqiqi lideri kimi nüfuz qazanmısınız. Bizim aramızda yaranmış münasibətləri yüksək qiymətləndirirəm.

***Nursultan NAZARBAYEV,***
*Qazaxıstan Respublikasının Prezidenti:*
- Sizin ali dövləti fəaliyyət sahəsində çoxillik təcrübəniz, xalqınızın rifahının yaxşılaşdırılmasına yönəlmiş gərgin səyləriniz bundan sonra da Azərbaycanın firavanlaşmasına və davamlı inkişafına sanballı töhfə verməkdə davam edəcək.

***Petro POROŞENKO,***
*Ukrayna Respublikasının Prezidenti:*
-Uzaqgörən siyasətiniz və həyata keçirdiyiniz mühüm işlər sayəsində Azərbaycan qlobal miqyasda milli maraqlarını müdafiə edərək güclü regional liderə çevrilmiş, beynəlxalq arenada önəmli yer tutmuşdur.

### Təcrübəli və uzaqgörən siyasi xadim

Bu günlərdə doğum günü münasibətilə cənab İlham Əliyevə gələn təbrik məktubları Azərbaycan Prezidentinin dünya miqyasında qəbul edilən nüfuzlu siyasətçi olmasından, prinsipial dövlət başçısı kimi tanınmasından xəbər verir. Məsələn, səmimi təbriklərini çatdıran Rusiya Prezidenti Vladimir Putin məktubunda Prezident İlham Əliyevi təcrübəli və uzaqgörən siyasi xadim adlandırır: "Siz həmvətənləriniz arasında və xaricdə haqlı olaraq təcrübəli və uzaqgörən siyasi xadim, öz ölkəsinin həqiqi lideri kimi nüfuz qazanmısınız. Dövlətlərimiz arasında strateji tərəfdaşlığın möhkəmlənməsinə Sizin şəxsi töhfəniz əvəzsizdir.

Vladimir Putin həmçinin yaranmış münasibətləri yüksək qiymətləndirir və Prezident İlham Əliyevlə konstruktiv dialoqun və sıx birgə işin davam edəcəyinə ümid bəslədiyini qeyd edir.

"Bu gün qardaş Azərbaycan Sizin müdrik rəhbərliyinizlə həyatın bütün sahələrində tərəqqi və inkişaf yolunda inamla irəliləyir. Ölkənin daxili və xarici siyasətindəki inamlı uğurlar Sizin adınızla ayrılmaz surətdə bağlıdır". Bu fikirlər Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun təbrik məktubunda yer alıb. Məktubda o da qeyd olunur ki, bu yaxınlarda Prezident İlham Əliyevin Türkmənistana rəsmi səfəri qardaş xalqlar arasında dostluq tellərinin möhkəmlənməsi, ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlığının dərinləşməsi yolunda mühüm mərhələ oldu.

Ukrayna Prezidenti Petro Poroşenko da Azərbaycan Prezidentini təbrik edib. Onun məktubunda yazılır: "Uzaqgörən siyasətiniz və həyata keçirdiyiniz mühüm işlər sayəsində Azərbaycan qlobal miqyasda milli maraqlarını müdafiə edərək güclü regional liderə çevrilmiş, beynəlxalq arenada önəmli yer tutmuşdur". Petro Poroşenko əmin olduğunu bildirir ki, Ukrayna-Azərbaycan əməkdaşlığı gələcəkdə də yüksək dinamikası, eləcə də dövlətlərimiz və xalqlarımız arasında qarşılıqlı əlaqələrin dərinləşməsi ilə xarakterizə ediləcək.

"Azərbaycan Respublikasının Prezidenti vəzifəsində çoxşaxəli fəaliyyətiniz Sizə, haqlı olaraq, həm öz ölkənizdə, həm də onun hüdudlarından uzaqlarda hörmət qazandırıb". Bunu isə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon yazır.

*Ardı 2-ci səh.*



## Günəşin övladları

### Mehriban Əliyevanın himayəsində olan daun sindromlu uşaqların sosial həyata dönüşü sürətlənib, sağlıq durumları normallaşıb

*Günəş kimi işıq saçırlar...*
*Parlaqdırlar, sevimlidirlər, hamısı da bir-birinə bənzəyir...*
*Tək görünüşləri deyil, taleləri də oxşardır...*
*Bir ömür boyu - ən çox da 30 il məhrumiyyətlərlə yaşayırlar...*
*Əsasən də ətrafdakıların onlardan daim qaçması, həmyaşıdlarının uzaq gəzmələri onları tənha həyata mübtəla edir...*
*Heç böyümürlər, elə uşaq kimi, saf, gülərüzdürlər, ətrafa müsbət enerji saçırlar...*
*Axı, onlar"Günəşin övladları"dırlar...*
*Amma daha çox daun sindromlu insanlar kimi tanınırlar...*

**Heç zaman başqa uşaqlar kimi oynaya, gülə, qaça, yıxıla bilmədi...**

"16 yaşı olsa da, o böyümədi, həmişə uşaq kimi qaldı, amma heç zaman başqa uşaqlar kimi oynaya, gülə, qaça, yıxıla bilmədi..."

Qızı daun sindromu daşıyıcısı olan Mədinə Əzizova söyləyir ki, övladının belə doğulduğunu bildikdə həyatı alt-üst olub: "Demək olar, bu illər ərzində qızımla bərabər ağır irəliləyən uzun bir yol qət etmişik.

*Ardı 3-cü səh.*

## Hədəflər dəf olundu

### 2018-ci il iqtisadi sahədə mühüm yeniliklərlə yadda qaldı



Daha bir il tarixə qovuşdu. Kimi bir yaş böyüdü, kimi də qocaldı. Qoca demişkən, elə qoca dünyanın da yaşının üstünə yaş gəldi, baxmayaraq ki, bir il onun üçün göz qırpımından da ani zamandır. Amma yaşı milyard illərlə ölçülən dünyamızın başı son illər olduğu kimi, 2018-ci ildə də dinc qalmadı - üzərindəki neçə-neçə evlər, şəhərlər, kəndlər dağıdıldı, qoynunda yer verdiyi yüz minlərlə insan evindən, obasından didərgin salındı, qanlı-qadalı saysız savaşlardan sinəsinə dağlar çəkildi.

*Ardı 2-ci səh.*

## Güclü iqtisadiyyat

### *İLHAM ƏLİYEV:*
### "Azərbaycan iqtisadiyyatı müstəqil iqtisadiyyatdır və bizim müstəqil siyasətimizi gücləndirən amildir"

Artıq tarixə çevrilən 2018-ci il ölkəmiz və xalqımız üçün uğurlu oldu. İctimai-siyasi, sosial-iqtisadi həyatın bütün sahələrində irəliləyiş baş verdi. Azərbaycan dünyada sayılıb-seçilən ölkə olduğunu bir daha təsdiq etdi. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bunları vurğulamış və qeyd etmişdir ki, bütün bu işləri görmək üçün güclü iqtisadiyyat olmalıdır və bu iqtisadiyyat var.

Beynəlxalq qurumların hesabatlarında verilən qiymət də Azərbaycanın güclü iqtisadiyyatı olduğunu sübut edir. Belə ki, Dünya Bankının "Doing Business" proqramının son hesabatlarında Azərbaycan dünya miqyasında 25-ci yerə layiq görülüb. Başqa sözlə, Dünya Bankı ölkəmizdə aparılan iqtisadi islahatları, onların şəffaflığını və nəticələrini yüksək dəyərləndirir.

Keçən il ölkə iqtisadiyyatına 10 milyard dollar sərmayə qoyulub. Qeyri-neft sektoru, o cümlədən onun mühüm qolu olan aqrar sahə getdikcə inkişaf edir. İxracın strukturunda qeyri-neft məhsulları çoxalır. İl ərzində ixrac təxminən 40 faiz artıb.

Sosial proqramların və yeni sosial infrastruktur layihələrinin həyata keçirilməsi davam edir.

*Ardı 4-cü səh.*

### *Qriqori TROFİMÇUK:*
## "Ötən il Rusiya-Azərbaycan münasibətləri inkişafın ən yüksək nöqtəsinə çatdı"



2018-ci ildə Rusiya-Azərbaycan münasibətləri inkişafın ən yüksək nöqtəsinə çatdı, lakin bu, son hədd deyil. Əlaqələrin gələcəkdə daha da inkişafı üçün bir sıra amillər mövcuddur. O cümlədən iqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün böyük imkanlar var.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Avrasiya İdeyalar Emalatxanası Elmi Araşdırmalara Dəstək Fondunun Ekspertlər Şurasının sədri, politoloq Qriqori Trofimçuk deyib.

O bildirib ki, bu gün Azərbaycan ilə Rusiya yalnız tərəfdaş deyil, həm də bir sıra əsas məsələlər üzrə müttəfiqdirlər, baxmayaraq ki, Azərbaycan nə Avrasiya İqtisadi İttifaqına, nə də ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvdür. Bu mənada ikitərəfli münasibətlərimizdə mövcud olan qeyri-formallıq da bu etibarlılığı təmin edir. Əməkdaşlığımızın möhkəmlənməsi istiqamətində görülən işlərdən danışarkən, demək olar ki, ötən il iki ölkə arasında bir çox sənədlər imzalanıb. Bu sənədlər əlaqələrin genişləndirilməsi baxımından baza rolunu oynayır.

Politoloq bildirib ki, ötən il Prezident Vladimir Putin və Prezident İlham Əliyevin şəxsi görüşləri müntəzəm şəkildə keçirilib və MDB Sammitindəki kimi işgüzar görüşlər də daxil olmaqla heç vaxt formal xarakter daşımayıb. Bu münasibətlər iki dövlət arasındakı qarşılıqlı əlaqələr üçün etibarlı təməl və zəmanətdir. Elə bir sahə yoxdur ki, Rusiya və Azərbaycan prezidentlərinin diqqətindən yayınsın.

"Bütün bunları nəzərə alaraq deyə bilərik ki, Azərbaycan Rusiyanın Cənubi Qafqazda strateji tərəfdaşı olmaqla yanaşı, Bakı geniş miqyasda daha fəal, fərqli fenomenə çevrilir. Bu, ona görə baş verir ki, Bakı ən çətin vəziyyətdə belə öz suveren mövqeyini saxlayır. Bu, hər zaman hörmət doğurur",- deyə Qriqori Trofimçuk vurğulayıb.

O bildirib ki, hazırda iki ölkənin prezidentlərinin qarşıya qoyduqları əsas məsələ bütün planlaşdırılmış layihələrin ardıcıl həyata keçirilməsidir. Bu layihələrdən Şimal-Cənub nəqliyyat dəhlizini, həmçinin Xəzərin hüquqi statusu ilə bağlı Konvensiyanın imzalanması ilə yaranan imkanları qeyd etmək mümkündür.

Müdafiə sahəsi ilə bağlı məsələlərin də rəsmi Moskva və Bakı üçün prioritet təşkil etdiyini deyən politoloq vurğulayıb ki, burada hərbi strukturlar arasındakı fəal əlaqələri, Bakının Rusiya və NATO nümayəndələrinin görüşləri üçün unikal potensialını qeyd etmək lazımdır. Bütün bunlar Ermənistan daxilində və Dağlıq Qarabağ ətrafında davam edən gərginlik, dünyada ümumi vəziyyətin pisləşməsi fonunda əlaqələrimizin gələcək inkişafı üçün əsas yaradır.

# Hədəflər dəf olundu



*Əvvəli 1-ci səh.*

Bütün bunlar XXI əsrin yola saldığımız 18-ci ilinin qara və bir də qırmızı rəngli mənzərəsidir.

Lakin bu dünyada Azərbaycan adlı kiçik bir ölkə də var və o, artıq neçə ildir, Prezident İlham Əliyevin dediyi kimi, sabitlik və inkişaf adasıdır. Beynəlxalq aləmdə, yaxın-uzaq regionlarda mahiyyətindən və sahəsindən asılı olmayaraq baş verən siyasi qarşıdurmalara, iqtisadi böhranlara tab gətirən ölkəmiz XX əsrin sonunda bərpa etdiyi müstəqilliyinin 27-ci ilini də bütün sahələrdə yaddaqalan uğurlarla yola saldı.

2018-ci il ölkəmiz üçün həm də ona görə əlamətdar oldu ki, xalqımız yenidən etimad göstərib İlham Əliyevi növbəti 7 il üçün özünün liderі, dövlətinin başçısı seçdi. Bu seçimdə xalq olaraq yanılmadığımızı təsdiqləyən amillərdən biri, bəlkə də birincisi Azərbaycanın ötən il sosial-iqtisadi sahələrdə qazandığı uğurlar oldu. Ölkədə ardıcıl həyata keçirilən islahatlar sayəsində 2018-ci il tarixə iqtisadi inkişafımızın yenidən sürətlənməsi dövrü kimi düşdü.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının sözlərinə görə, ötən il strateji yol xəritələrinin icrası təmin edilmiş, o cümlədən kiçik və orta sahibkarlığın meyarlarının yenilənməsi, "Yaşıl dəhliz"in qaydalarının qəbulu, biznesə başlama, lisenziya və icazələr, yoxlamalar, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, əmlakın qeydiyyatı və xarici ticarət üzrə islahatlar aparılmış, yeni aqro və texnoparklar, sənaye məhəllələri yaradılmışdır. Eyni zamanda sahibkarların vergi yükünün optimallaşdırılması, vergi bazasının genişləndirilməsi, leqallaşma, rəqəmsallaşma və vergi-gömrük administrasiyası ilə sahibkarların münasibətlərinin daha sivil səviyyəyə çatdırılması üçün vergi və gömrük sahələrində islahatlar aparılmışdır.

Keçən ilin mühüm hadisələrindən biri də Azərbaycanda aparılan iqtisadi islahatlara Dünya Bankının "Doing Business 2019" hesabatında verilən yüksək qiymət olmuşdur. Həmin hesabatda Azərbaycan dünyada ən islahatçı ölkə elan edilmişdir. Yeri gəlmişkən qeyd edək ki, 2017-ci il və 2018-ci ilin ilk 4 ayında sözügedən hesabat üzrə 30-a yaxın normativ hüquqi akt qüvvəyə minməklə ölkəmizdə 70-dən çox islahat həyata keçirilmişdir. Həmin hesabatda Azərbaycan 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmışdır. Bu göstərici MDB-də ən yüksək olmaqla BRICS ölkələrinin hamısının, G20 ölkələrinin isə dörddə-üçünün üstələnməsi deməkdir.

Ötən il həmçinin ölkədə aparılan institusional və struktur islahatları çərçivəsində "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün strategiya" qəbul olunmuş, həmçinin KOB-un İnkişaf, Dövlət Turizm, Qida Təhlükəsizliyi, Aqrar Kredit və İnkişaf agentlikləri, "DOST" Mərkəzi, TƏBİB, DAİM, "Aqrar tədarük və təchizat" ASC, Rəqəmsal Ticarət Qovşağı kimi yeni qurumlar fəaliyyətə başlamışdır. V.Qasımlı deyir ki, dövlət başçısının dizayn verdiyi yeni iqtisadi modelə uyğun institusional strukturlar ardıcıl şəkildə yenilənir: "Vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi üçün dövlət qurumlarını tam elektronlaşdırmaq, dövlət informasiya ehtiyatlarının analitik təhlilini aparmaq, nəticələrdən dövlət və özəl sektorlarının istifadə etmə imkanlarını yaratmaq üçün dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, idarə olunması və qarşılıqlı inteqrasiyanın təmin edilməsi sahəsində vahid yanaşmanın, standartların tətbiqi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi məqsədilə elektron hökumətin əhatə dairəsi genişləndirilir, "bir pəncərə" sistemindən 7/24/365 (yəni ilin bütün günləri və günün bütün saatları) prinsipinə keçid baş verir".

2018-ci ildə qeyri-neft sektorunda özəl sahibkarlığın iştirakı ilə ticari bölmənin hesabına ölkə iqtisadiyyatının 1 faiz artdığını deyən icraçı direktor onu da qeyd edib ki, son 15 ildə 3,2 dəfə böyüyən iqtisadiyyatımızın belə bir faza üzərində, üstəlik neft hasilatının ilbəil azalması və neft qiymətlərinin kəskin volatilliyi fonunda inkişafı təqdirəlayiqdir: "İqtisadi artımda neft sahəsinə nisbətən qeyri-neft sektoru, dövlət bölməsinə baxanda özəl bölmə və qeyri-ticari sektorla müqayisədə ticari sektor getdikcə drayver rolunu daha çox oynayır, yəni iqtisadi artımın keyfiyyəti yüksəlir. Digər tərəfdən, dövlət investisiyalarının qidalandırdığı iqtisadi model islahatların transformasiya etdiyi, məhsuldarlığa və əlverişli biznes mühitinə əsaslanan modellə əvəzlənir".

Elə bu yerdə qeyd edək ki, Azərbaycanda ÜDM-in strukturunda sənayenin üstün artım tempi qlobal trend olaraq dördüncü sənaye inqilabı ilə səsləşir. Sənayenin ÜDM-də xüsusi çəkisinə görə Avropada ön sırada gedən Azərbaycan hazırda bu sektorun strukturunda neftdən qeyri-neft bölməsinə uğurlu keçid edir. Faktlara nəzər salaq: təkcə son 2 ildə Azərbaycanın qeyri-neft sektoru üzrə ixracında qeyri-neft sənaye məhsullarının həcmi xeyli artıb. Eyni zamanda Azərbaycanın liderliyi ilə Xəzər sahilindən başlamış Gürcüstan üzərindən Türkiyədə Aralıq dənizi sahilinə uzanan nəhəng kimya kompleksi yaradılıb. Təsadüfi deyil ki, Azərbaycan bu gün sənaye ölkəsi olaraq regionun təkcə enerji deyil, həm də neft-kimya sənayesi mərkəzi sayılır.

Ölkə iqtisadiyyatı üçün 2018-ci ilin yaddaqalan göstəricilərindən biri də xarici ticarət sahəsində qeyri-neft məhsullarının ixracının artması olmuşdur. İlkin qiymətləndirmələrə əsasən, ötən il xaricə satdığımız məhsulların dəyəri 30 faiz artmışdır ki, bunu da iqtisadiyyatımızın ixracyönümlü inkişafının göstəricisi kimi qəbul etmək mümkündür. İlkin proqnozlara görə, ötən il 2017-ci ilə nisbətən qeyri-neft məhsullarının ixracından ölkəyə 170 milyon dollar çox valyutanın daxil olması gözlənilir. Sözsüz ki, belə bir nəticənin əldə edilməsində "Azexport", müxtəlif ölkələrdə yaradılan ticarət nümayəndəlikləri və evlərinin, eləcə də ixrac subsidiyaları və digər stimullaşdırıcı mexanizmlərin rolu danılmazdır.

2018-ci il Azərbaycan üçün həm də meqalayihələrin reallaşması ilə yadda qalmışdır. Keçən il "Cənub qaz dəhlizi" və onun bir hissəsi olan TANAP-ın açılışı olmuşdur ki, bu da 1,2 trilyon kubmetr ehtiyata malik "Şahdəniz-2" yatağından qazın Türkiyə, Gürcüstan və Avropaya nəqlinə şərait yaradır. Ölkəmizə külli miqdarda valyuta qazandıracaq sözügedən layihə bizim üçün ona görə əhəmiyyətlidir ki, bizə Avropada enerji təhlükəsizliyinin təmin edilməsində iştirakçı olmaqla bərabər, həm də Azərbaycanda yeni iş yerlərinin yaradılması, ətraf mühitin qorunması üçün əlavə imkanlar verir.

Ötən il Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Bakı Beynəlxalq Ticarət Limanı Kompleksinin açılışı da olmuşdur. Kompleks 2017-ci ildə Prezident İlham Əliyev tərəfindən açılmış Bakı-Tbilisi-Qars dəmiryol xətti üçün birbaşa yükcəmləyici məntəqə funksiyasını yerinə yetirir. Söz düşmüşkən qeyd edək ki, Prezident İlham Əliyevin keçən il xeyir-dua verdiyi layihələrdən biri də Türkiyədə "Petkim" neft-kimya kompleksinin ərazisində inşa olunan "Star" neft emalı zavodu olmuşdur. Bu zavod qardaş ölkənin ilk Xüsusi Sənaye Zonası elan edilmişdir.

Keçən il həmçinin 20 ildən artıq davam edən müzakirələrdən sonra Xəzərin hüquqi statusuna dair Konvensiyanın imzalanması ilə əlamətdar olmuşdur. Bu sənədin imzalanmasını Xəzəryanı dörd ölkə ilə bərabər, Azərbaycanın da uğuru hesab etmək olar. Konvensiya ölkəmizə nəqliyyat, logistika, tranzit, ticarət, enerji və bioresursların istifadəsi baxımından yeni imkanlar açır.

Digər əhəmiyyətli bir fakt: 2018-ci ildə tədiyə balansında profisit güclənmiş, strateji valyuta ehtiyatlarımız 45 milyard dollara yaxınlaşmaqla ÜDM-in 90 faizindən çoxunu təşkil etmişdir. Nəzərə alsaq ki, strateji valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 3 dəfə çoxdur, onda 2019-cu ildə makroiqtisadi sabitlik üçün ciddi əsaslar olduğu üzə çıxar.

Ötən ili milli valyutamız üçün də uğurlu saymaq olar. Keçən il dünyanın ən sabit valyutalarından olmuş Azərbaycan manatı türk lirəsinə qarşı 29, İran rialına qarşı 3, Ukrayna qrivnasına qarşı 2, Gürcüstan larisinə qarşı 4, Qazaxıstan təngəsinə qarşı 16, Rusiya rubluna qarşı 18, Çin yuanına qarşı 6, ABŞ dollarına qarşı 1, avroya qarşı 5 faiz bahalaşmışdır.

***Raqif MƏMMƏDOV,***
***"Azərbaycan"***







# Dünyanın ehtiram göstərdiyi lider

*Əvvəli 1-ci səh.*

Əmin olduğunu bildirir ki, Tacikistan ilə Azərbaycan arasında dostluq və qarşılıqlı anlaşma ənənələrinə əsaslanan çoxşaxəli əməkdaşlıq münasibətləri xalqlarımızın köklü mənafelərinə uyğun olaraq bundan sonra da möhkəmlənəcək və inkişaf edəcək.

Prezident İlham Əliyevi təbrik edənlər arasında keçmiş dövlət başçıları da var. Onlardan 2003-2018-ci illərdə Monteneqronun prezidenti olmuş Filip Vuyanoviç yazır: "Dost Azərbaycanın tərəqqisinin təmin edilməsində və nüfuzunun artmasında xidmətləriniz əvəzsizdir və daim hörmətə layiqdir. Çox dəyərli atanızın yolunu davam etdirərək beynəlxalq aləmdə dövlətinizin nüfuzunun yüksəlməsi ilə və bir çox sahələrdə digərləri üçün örnək olacaq nailiyyətlərlə iftixar duya bilərsiniz".

1994-2005-ci illərdə Ukrayna prezidenti olmuş Leonid Kuçma: "Sizin dövlət başçısı vəzifəsində səmərəli fəaliyyətiniz ən yüksək qiymətə layiqdir. Siz öz işinizdə yalnız müstəqil Azərbaycanın mənafelərini əsas götürürsünüz. Siz dövlətçiliyi möhkəmləndirir, ölkənizdə iqtisadi artım üzərində çalışır, innovasiyalı inkişafı təmin edirsiniz. Sizin rəhbərliyinizlə Azərbaycan regionda sabitliyə və sülhün möhkəmlənməsinə sanballı töhfə verir".

## Prinsipial, güclü və iradəli rəhbər

"Sizin adınız Azərbaycanda, regionda və bütün dünyada öz ölkəsini inkişaf və firavanlıq, vətəndaş həmrəyliyinin və əmin-amanlığın təmin edilməsi yolunda qətiyyətlə irəli aparan prinsipial, güclü və iradəli rəhbər assosiasiyası doğurur". Bu fikirlər MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedevin Prezident İlham Əliyevə təbrikində yer alıb.

Məktubda daha sonra yazılır: "Sizin yüksək intellektual potensialınız, geniş təfəkkürünüz və dövlət idarəçiliyi sahəsində çoxillik təcrübəniz dinamik inkişaf edən müasir reallıq şəraitində optimal qərarlar qəbul etməyə imkan verir. Sizin rəhbərliyinizlə həyata keçirilən strateji kurs Azərbaycanın beynəlxalq arenada nüfuzunun və rolunun durmadan yüksəldilməsinə yönəlib. Ölkənin iqtisadi potensialının möhkəmlənməsi, insanların həyat keyfiyyətinin yaxşılaşdırılması Sizin Prezident vəzifəsində səmərəli işinizin dəyişməz prioritetləri olub və yenə də belədir".

Sergey Lebedev əmin olduğunu bildirir ki, İlham Əliyevin qərarlar qəbul olunmasında və hər bir işdə nümayiş etdirdiyi siyasi iradə və müdriklik güclü və inkişaf etmiş dövlət yaratmağa, Müstəqil Dövlətlər Birliyi məkanında qarşılıqlı inteqrasiyanın möhkəmlənməsinə bundan sonra da kömək edəcək.

Rusiya Federasiyası Prezidenti Administrasiyası rəhbərinin müavini Maqomedsalam Maqomedov isə Prezident İlham Əliyevi Xəzər regionunda sabitliyin qarantı adlandırır: "Siz müdrik və məsuliyyətli, öz vətəndaşlarının firavanlığının qeydinə daim qalan, Xəzər regionunda sabitliyin qarantı kimi çıxış edən, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında ikitərəfli əlaqələrin strateji inkişafını hədəf seçmiş rəhbər kimi haqlı olaraq yüksək nüfuz və hörmət qazanmısınız".

Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası sədrinin müavini İlyas Umaxanov təbrikində Prezident İlham Əliyevin müdrikliyinin və siyasi uzaqgörənliyinin heyranlıq doğurduğunu yazır: "Mən bilirəm ki, Sizin üçün hakimiyyət əsas məqsəd deyil, yalnız öz xalqına, doğma ölkəsinə real fayda vermək imkanıdır. Bu gün Siz Azərbaycanı yeniləşmə və inkişaf yolu ilə irəli aparırsınız, bu diyarda sülhün, təhlükəsizliyin və əmin-amanlığın təmin olunması üçün əlinizdən gələni edirsiniz. Azərbaycanın hazırkı sabit, uğurlu inkişafı daha çox Sizin adınızla bağlıdır. Bu, dahi atanız Heydər Əliyevin işlərinin davamıdır".

Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Vladimir Vasilyev isə təbrikində Prezident İlham Əliyevin uğurlara imza atmış bir dövlət xadimi kimi Azərbaycan Respublikasında sabitliyin və firavanlığın qarantı olduğunu qeyd edir. "Sizin müdrikliyiniz, uzaqgörənliyiniz və geniş dünyagörüşünüz sayəsində bu gün Azərbaycan Respublikası dinamik inkişaf edən bir dövlətdir" deyə Dağıstanın rəhbəri yazır. Onu da qeyd edir ki, Rusiyanın Dağıstan Respublikası ilə Azərbaycan Respublikası arasında çoxəsrlik dostluq tellərinə və qarşılıqlı hörmətə əsaslanan səmimi və mehriban qonşuluq münasibətləri xalqlarımızın mənafeyi naminə bundan sonra da genişlənəcək.

Rusiya Federasiyasının Dağıstan Respublikası Xalq Məclisinin sədri Xızrı Şıxsəidov da Azərbaycan Prezidentini təbrik edənlər arasındadır. O, təbrikində qeyd edir: "Müasir Azərbaycanın uğurları, onun iqtisadi, siyasi və beynəlxalq mövqelərinin möhkəmlənməsi Sizin adınızla ayrılmaz surətdə bağlıdır. Siz uzaqgörən və müdrik siyasi xadim kimi haqlı olaraq həm öz vətəninizdə, həm də onun hüdudlarından kənarda böyük nüfuz qazanmısınız. Sizin fəaliyyət xəttinizin çoxmillətli Azərbaycan xalqı tərəfindən haqlı olaraq dəstəklənməsi Azərbaycan Respublikasının Prezidenti seçkilərində növbəti inandırıcı qələbəyə çevrildi. Sizin rəhbərliyinizlə həyata keçirilən dəyişikliklər və iri layihələr atanız, Azərbaycan xalqının dahi oğlu və ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin şanlı işlərinin layiqli davamıdır".

- **Emoməli RƏHMON,**
  *Tacikistan Respublikasının Prezidenti:*
  - Azərbaycan Respublikasının Prezidenti vəzifəsində çoxşaxəli fəaliyyətiniz Sizə, haqlı olaraq, həm öz ölkənizdə, həm də onun hüdudlarından uzaqlarda hörmət qazandırıb.

- **Sooronbay JEENBEKOV,**
  *Qırğız Respublikasının Prezidenti:*
  - Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə inkişaf edən ölkənin gələcək tərəqqisi və Azərbaycan xalqının həyatının yaxşılaşdırılması yolunda inamlı addımlar atır.

- **Filip VUYANOVİÇ,**
  *2003-2018-ci illərdə Monteneqronun prezidenti:*
  - Çox dəyərli atanızın yolunu davam etdirərək beynəlxalq aləmdə dövlətinizin nüfuzunun yüksəlməsi ilə və bir çox sahələrdə digərləri üçün örnək olacaq nailiyyətlərlə iftixar duya bilərsiniz.

- **Leonid KUÇMA,**
  *1994-2005-ci illərdə Ukraynanın prezidenti:*
  - Sizin dövlət başçısı vəzifəsində səmərəli fəaliyyətiniz ən yüksək qiymətə layiqdir. Siz öz işinizdə yalnız müstəqil Azərbaycanın mənafelərini əsas götürürsünüz.

- **Sergey LEBEDEV,**
  *MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib:*
  - Sizin adınız Azərbaycanda, regionda və bütün dünyada öz ölkəsini inkişaf və firavanlıq, vətəndaş həmrəyliyinin və əmin-amanlığın təmin edilməsi yolunda qətiyyətlə irəli aparan prinsipial, güclü və iradəli rəhbər assosiasiyası doğurur.

- **Rəşid ALİMOV,**
  *Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi:*
  - Sizin dünya miqyasında yeritdiyiniz uzaqgörən və praqmatik siyasətiniz, ölkənin milli mənafelərini qətiyyətlə qorumaq və müdafiə etməkdə xüsusi bacarığınız sayəsində Azərbaycan regional və beynəlxalq gündəlikdə olan ən mühüm məsələlərin həllində fəal rol oynayır.

- **İlyas UMAXANOV,**
  *Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası sədrinin müavini:*
  - Mən bilirəm ki, Sizin üçün hakimiyyət əsas məqsəd deyil, yalnız öz xalqına, doğma ölkəsinə real fayda vermək imkanıdır.

- **Vladimir VASİLYEV,**
  *Dağıstan Respublikasının rəhbəri:*
  - Siz uğurlara imza atmış bir dövlət xadimi kimi Azərbaycan Respublikasında sabitliyin və firavanlığın qarantısınız.

- **Xızrı ŞIXSƏİDOV,**
  *Rusiya Federasiyasının Dağıstan Respublikası Xalq Məclisinin sədri:*
  - Müasir Azərbaycanın uğurları, onun iqtisadi, siyasi və beynəlxalq mövqelərinin möhkəmlənməsi Sizin adınızla ayrılmaz surətdə bağlıdır.

- **Mixail QUTSERİYEV,**
  *"Russneft" Neft-Qaz Şirkəti Publik Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri:*
  - Siz, görkəmli siyasi xadim, haqlı olaraq dünya siyasi elitasının ən parlaq nümayəndələrindən birisiniz.

## Azərbaycan ən mühüm məsələlərin həllində fəal rol oynayır

Prezident İlham Əliyevin ünvanına başqa bir təbrik Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi Rəşid Alimovdan gəlib. Bu gün Azərbaycanın Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrinin müasirləşdirilməsi yolunda ardıcıl və dinamik surətdə irəlilədiyini qeyd edən Rəşid Alimov daha sonra yazır: "Sizin zəngin siyasi təcrübəniz və yüksək peşəkarlığınız Azərbaycan xalqının rifahının yüksəldilməsi naminə mürəkkəb məsələləri qətiyyətlə və ardıcıl olaraq həll etməyə imkan verir. Sizin dünya miqyasında yeritdiyiniz uzaqgörən və praqmatik siyasətiniz, ölkənin milli mənafelərini qətiyyətlə qorumaq və müdafiə etməkdə xüsusi bacarığınız sayəsində Azərbaycan regional və beynəlxalq gündəlikdə olan ən mühüm məsələlərin həllində fəal rol oynayır".

Türkdilli Ölkələrin Parlament Assambleyasının Baş katibi Altınbek Mamayusupov da Prezident İlham Əliyevə təbrik göndərib. O yazır ki, görülmüş işlər nəticəsində inkişafın nümunəvi Azərbaycan modeli formalaşmışdır: "Sizin rəhbərliyinizlə məqsədyönlü, ardıcıl və düzgün qurulmuş fəaliyyət nəticəsində Azərbaycanın beynəlxalq nüfuzu durmadan artmış, siyasi, sosial-iqtisadi və mədəni sahələrdə möhtəşəm uğurlar qazanılmışdır. Ölkədə müxtəlif irimiqyaslı beynəlxalq layihələrin və tədbirlərin həyata keçirilməsi ənənə halını almış, dayanıqlı inkişafın nümunəvi Azərbaycan modeli formalaşmışdır".

Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev də Prezident İlham Əliyevə səmimi təbriklərini çatdırıb: "Siz son dərəcə təcrübəli dövlət xadimi, səriştəli diplomat və müstəsna istedadlı siyasi xadim olaraq Azərbaycanı günbəgün inkişaf və firavanlaşma yolu ilə irəli aparırsınız.

Dmitri Savelyev qeyd edir ki, Prezident İlham Əliyevin strateji düşünmək, qəbul olunmuş qərarları ardıcıl surətdə həyata keçirmək və xalqı inamla irəli aparmaq, Azərbaycan dövlətinin sabitliyini və dünya siyasi arenasında mövqelərini ilbəil möhkəmlətmək qabiliyyəti səmimi heyranlıq doğurur.

"Siz, görkəmli siyasi xadim, haqlı olaraq dünya siyasi elitasının ən parlaq nümayəndələrindən birisiniz. Siz bütün enerjinizi geosiyasi məkanda dövlətinizin mənafelərinin qorunmasına, respublikanın bütün vətəndaşları üçün mənəviyyatın və sosial sabitliyin inkişafına sərf edirsiniz". Bunu isə "Russneft" Neft-Qaz Şirkəti Publik Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Mixail Qutseriyev yazıb. O, əmin olduğunu bildirir ki, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycan iqtisadi firavanlıq yolunu davam etdirəcək, vətəndaşların rifahının durmadan artmasını bütün dünyaya göstərəcək.

*Doğum günü ilə əlaqədar Prezident İlham Əliyevin ünvanına çoxsaylı təbriklər gəldi. Təbrik edənlər arasında xeyli sayda dövlət və hökumət başçısının, beynəlxalq təşkilatların rəhbərlərinin, siyasi-ictimai xadimlərin, elm adamlarının adına rast gəlmək olur. Və hər bir təbrikin məzmunu Prezident İlham Əliyevin şəxsiyyətinə dünyada olan yüksək ehtiramdan, Azərbaycanın dövlət başçısının seçilən, hörmət bəslənilən lider olmasından xəbər verir.*

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***







# Günəşin övladları

## Mehriban Əliyevanın himayəsində olan daun sindromlu uşaqların sosial həyata dönüşü sürətlənib, sağlıq durumları normallaşıb

*Əvvəli 1-ci səh.*

Həm qızımı həyata tutulmağa öyrətməli, həm özüm bu vəziyyətə alışmalı idim... Təbii ki, bu, asan olmadı və elə anlar oldu ki, taqətimin tükəndiyini hiss etdim, amma bircə an da olsun övladım uğrunda həyat mübarizəsindən çəkinmədim... Və yaxşı ki belə etdim... Bu gün mənə dəstək olan, adi narahatlığım olanda da əlimdən tutan, gözlərimin içinə baxaraq gülümsəyən, mənə dayaq duran qızım var..."

### Daun - sindrom, yoxsa xəstəlik?

İldə dünyada 5000-ə qədər körpə daun sindromu ilə doğulur. Azərbaycanda isə onların sayı 700-ə yaxındır. Uşağın zehni cəhətdən inkişafdan qalmasına səbəb olan bu halı ilk dəfə 1866-cı ildə ingilis həkimi Con Lenqton Daun kəşf edib. Alim xarakter xüsusiyyəti olan bu sindromu bir qız uşağında müşahidə edib və onu "monqolizm" adlandırıb, ancaq asiyalı alimlərin münasibətindən sonra onu kəşf edən alimin şərəfinə "Daun sindromu" adlandırıblar.

Daun sindromu insanın xromosomlarında olan problemdən irəli gəlir. İnsanların hər birində 46 xromosom olur və onların 23-ü atadan, 23-ü isə anadan övlada keçir. Daun sindromlu şəxslərdə isə 47 xromosom olur. 21-ci xromosomda baş verən anomaliya zamanı bu sindrom meydana çıxır. Daunun 3 forması var. Xromosomların mikroskop altında müayinəsi zamanı bütün hüceyrələrdə 47 xromosom görülürsə, bu, klassik daundur. Belə uşaqlar vaxtından 2 həftə əvvəl doğulur. Çox vaxt onların çəkisi 2-2.2 kiloqram olur. Ürək qüsuru ilə dünyaya gəlirlər. Belə uşaqların müalicəsi ağır olur və çox yaşamırlar. İkinci forması mozaikdir. Buna həm də daunizm də deyirlər. Mikroskop altında həm normal hüceyrə toplumu, həm də 47 xromosom müşahidə edilir. Belə uşaqlar çox zaman vaxtında doğulur, ürək qüsurlu olmurlar və çəkiləri də normal olur. Həyat təcrübəsi göstərir ki, belə uşaqlar 60 il yaşaya bilirlər. Üçüncü forma isə translokasiyadır. Xromosomun sayı eynidir, amma strukturunda dəyişiklik olur.

Biologiya elmləri doktoru, genetik Elxan Rəsulov deyir ki, əgər hamiləlik 33-40 yaş arasındadırsa, uşağın daun sindromlu doğulma riski 10 dəfə artır. Qadın 40 yaşından sonra uşaq dünyaya gətirirsə, onda risk daha da çoxalır. Yəni hər 7-8 uşaqdan biri daun sindromu ilə doğulur.

### Ananın ötürdüyü bəla...

Daun irsi xəstəlikdir və bu xəstəlik uşağa yalnız anadan keçir. Daun sindromlu körpə doğmaq ehtimalı qadınlarda yaş artdıqca çoxalır. Çünki həm yumurtahüceyrə, həm də spermatozoid mutasiyalara daha həssas olur. Bu səbəbdən 40-45 yaşlı qadınların daun sindromlu uşaq dünyaya gətirmələrinə daha tez-tez rast gəlinir. Aparılan çoxsaylı tədqiqatlarda məlum olub ki, yaşı 35-ə qədər olan hamilə qadınlarda daunlu uşaq doğmaq 1:800, 35 yaşdan yuxarı 1:80 nisbətindədir. Yəni genetik risk on dəfə artır. Ən əsası, yaşı 40-dan çox olan qadınlarda bu nisbət 1:8-dir. Buradan belə çıxır ki, genetik risk 100 dəfə artır. Bu da ananın yumurtahüceyrəsinin fizioloji qocalması ilə əlaqədardır.

Bununla yanaşı, sindromun yaranmasına təsiredici faktorlar arasında radiasiya, narkotik və spirt istifadəsi kimi müxtəlif səbəblər göstərilsə də, bunların içində qətilik qazanmış olanı hələ ki yoxdur.

### Xarici görünüş dəqiq diaqnoz qoyulmasına kifayət deyil...

Daunlar xarakterik xarici görünüşə malik olurlar. Yanaqlar üzün yastılaşmış fonunda bir qədər üzə çıxır. Gözləri uzunsov və kiçik olur, göz yarığı çəp, göz bucağında dəri büküşlü, ağzı yarıaçıq, dili böyük, qarnı köpmüş, dişləri seyrək, əzələləri və oynaqları zəif inkişaf etmiş olur. Onlar da adi körpələr kimi qidalanırlar, ancaq piylənməyə meyilli olduqları üçün yağlı qidalardan uzaq durmaları və daha çox vitaminli qidalar qəbul etmələri məsləhətdir. Xüsusilə də bu uşaqların ana südü ilə bəslənmələri çənə aparatının qüvvətlənməsini təmin edir.

Dişlərində də daim problem olduğuna görə daha çox kalsiumlu qidalar qəbul etmələri vacibdir. Ən əsas isə daun sindromlu uşaqların ayaqları və əlləri tez-tez masaj olunmalıdır.

Yeni doğulan körpələrdə daun sindromundan şübhələnmək üçün bir çox fiziki xüsusiyyətlər var, ancaq diaqnoz qoyulması üçün təkcə xarici görünüş kifayət deyil, mütləq xromosomların analizini həyata keçirmək lazımdır.

Ginekoloq Turab Canbaxışov məlumat verir ki, hamilə qadınlarda daun sindromunun skrininqi adlanan müayinə aparılır. Bunlar ikili, üçlü, dördlü və kombinə olunmuş testlərdir. Hamiləlik zamanı bu testlərdən sadəcə birinin istifadəsi uyğundur. Bunlardan ən çox məlum olanı ikili və dördlü testlərdir. Bu müayinələr nəticəsində yüksək risk aşkar olunduqda diaqnozun dəqiqləşdirilməsi üçün hamilələr xorion xovlarının biopsiyası, amniosintez, kordosintez testlərindən də keçirilirlər. İkili test hamiləliyin 11-14 həftələrində, dördlü test isə 15-20 həftələrində həm ultrasəs müayinəsi, həm də qan analizi ilə aparılır. Bu test daun sindromu riskini 80-85 faiz müəyyənləşdirir. Nəticələrinə gəldikdə isə, ikili testdə ənsə şəffaflığı artdıqca daun sindromu riski də yüksəlir.

Daunlarda məhdud anlama bacarığı, böyük və kiçik motor problemi, nitqdə ləngimə, zəif eşitmə, görmə qüsurları olur. Onların immunitetləri də zəif olur və bu uşaqlar qulaq, göz infeksiyalarına meyillidirlər. Bu sindromla doğulanların 60 faizində eşitmə ilə bağlı problemlər, 40 faizində isə anadangəlmə ürək qüsurları olur.

Həzm sistemi ilə bağlı pozuntular da normadan artıq olur. Daun sindromlu uşaqlarda qan xərçənginə daha çox rast gəlinir. Bu şəxslərdə həyat müddəti 16-30 ildir, amma irəliləyən tibbin inkişafı sayəsində yaş müddəti uzanıb və hətta 80 yaşlı daunlara da rast gəlinir.

Bildirək ki, daun sindromlu kişi və qadınlarda sonsuzluq ehtimalı da yüksəkdir. Daunlu qadının dünyaya gətirəcəyi uşaqlarda problemin üzə çıxması 50 faiz daha çoxdur.

### Sindromun tam müalicəsi yoxdur, amma...

Təəssüf ki, daun sindromunun tam müalicəsi yoxdur, amma onun əlamətlərini qismən, ya da tamamilə yox edəcək müvəffəqiyyətli fizioloji və zehni müdaxilələr mümkündür. Eyni zamanda, təcili müdaxilə lazım olan vəziyyətlərdə (daun sindromunda rast gəlinən tıxanmış həzm kanalı kimi) əməliyyata da müraciət etmək olur.

Bu diaqnoz qoyulduqdan sonra ekokardioqram testləri ilə ürək vəziyyəti, X şüaları ilə sinə və həzm sistemi problemləri analiz edilir. Hər il göz müayinəsi aparılır, 6-12 ayda bir dəfə eşitmə testi edilir, 6 ayda bir dəfə dişlər yoxlanılır, 21 yaşına qədər mütəmadi olaraq sümük sistemi nəzarət altında olur, 12 aydan bir isə tiroid testi aparılır.

### "Qızımın yumru gözləri üzünə daha da gözəllik verirdi..."

Səhiyyə Nazirliyinin məlumatına əsasən, ötən il Azərbaycanda 107 nəfərə daun sindromu diaqnozu qoyulub.

Ölkəmizdə bu cür şəxslər "Qayğı - Sağlam Nəsil Naminə" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzində təlim-məşğələlər keçirlər. Təlim-məşğələlərin necə keçirilməsi ilə tanış olmaq üçün həmin mərkəzə baş çəkdik.















**İldə dünyada 5000-ə qədər körpə daun sindromu ilə doğulur. Azərbaycanda isə onların sayı 700-ə yaxındır**

- 16 yaşı olsa da, o böyümədi, həmişə uşaq kimi qaldı, amma heç zaman başqa uşaqlar kimi oynaya, gülə, qaça, yıxıla bilmədi. Demək olar, bu illər ərzində qızımla bərabər ağır irəliləyən uzun bir yol qət etmişik. Bu gün mənə dəstək olan, adi narahatlığım olanda da əlimdən tutan, gözlərimin içinə baxaraq gülümsəyən, mənə dayaq duran qızım var....
- 2008-ci il idi. Həsrətlə qızımın doğuluşunu gözləyirdik. Uşaq doğuldu. Qızımın yumru gözləri üzünə daha da gözəllik verdiyindən ağlımıza pis heç nə gəlmirdi. Lakin bu acı həqiqəti onun 6 ayı tamam olanda öyrəndik... Hər şeyi araşdırdım, öyrəndim, sən demə, qızım və biz bu reallıqla bir ömür yaşamalı olacağıq...
- Oğlumu sağlam gözləyirdim. Dərdimin üstünə dərd gəldi. Təsəvvür edin, iki uşağım var, ikisi də daun. Artıq ediləcək heç nə yox idi. Uşaq doğulmuşdu, körpədən imtina etmək isə heç ağlımızın ucundan da keçmirdi. Onu da bağrımıza basdıq və qismətimizlə barışdıq.

İdman zalında diqqətimizi bir-biri ilə çox mehriban davranan iki uşaq cəlb edir. Bunlar daunlu bacı-qardaş, 10 yaşlı Alina və 5 yaşlı Ruslan Seyidəliyevlərdir.

Ruslan reabilitasiyaya yeni başlasa da, Alina artıq 5 ildir ki, burada təlim keçir. Müəllimi Zülfiyyə Əhmədova bildirir ki, Alina mərkəzə təzə gələndə sadəcə bəzi sözləri bilirmiş, indi isə bütün rəngləri tanıyır, hecaları oxumağı, 5-ə qədər toplayıb-çıxmağı, 20-yə qədər saymağı bacarır.

"2008-ci il idi. Həsrətlə qızımın doğuluşunu gözləyirdik. Uşaq doğuldu. Əvvəl hər şey normal gedirdi. Əlləri, ayaqları, bədəni... Hə, indi düşünəndə deyə bilərəm ki, gözləri fərqli idi. Qızımın yumru gözləri üzünə daha da gözəllik verdiyindən ağlımıza pis heç nə gəlmirdi. Lakin bu acı həqiqəti onun 6 ayı tamam olanda öyrəndik" deyə uşaqların anası Elnarə Seyidəliyeva ürək ağrısı ilə danışır. İki övladı daun sindromlu olan ana deyir ki, uşaq doğulanda daun haqqında heç bir məlumatı olmayıb. Qızının daunlu olduğunu biləndə düşünüb ki, adi xəstəlikdir və müalicə ilə sağalacaq. Amma zaman keçdikcə Elnarə anlayır ki, qızı xəstə deyil: "Hər şeyi araşdırdım, öyrəndim, sən demə, qızım və biz bu reallıqla bir ömür yaşamalı olacağıq..."

### "Körpədən imtina etmək ağlımızın ucundan da keçmirdi..."

Köks ötürüb sözünə davam edir: "Alinadan sonra ikinci uşağa hamilə qalanda artıq Bakıya köçmüşdük. Bakıda özəl xəstəxanalardan birində daha ciddi müayinə olundum. Ultrasəs və dopler, qan analizi... Dedilər, bu uşaq tam sağlamdır".

Uşaq doğulanda isə Seyidəliyevlər ailəsi ikinci zərbəni alır. Bu uşaq da daunlu doğulur. Bu isə Elnarəni çox qorxudur: "Oğlumu sağlam gözləyirdim. Dərdimin üstünə dərd gəldi. Təsəvvür edin, iki uşağım var, ikisi də daun. Artıq ediləcək heç nə yox idi. Uşaq doğulmuşdu, körpədən imtina etmək isə heç ağlımızın ucundan da keçmirdi. Onu da bağrımıza basdıq və qismətimizlə barışdıq".

Üçüncü hamiləliyində aparatlara inanmayan cütlük doğulmamış uşağı genetik analizdən keçirir. "Yüzdə-yüz sağlamdır" cavabını alandan sonra uşağı dünyaya gətirmək qərarına gəlirlər. Və onların üçüncü övladı Nərmin tam sağlam olaraq dünyaya gəlir...

### Valideynlərin də psixoloji dəstəyə böyük ehtiyacı var...

Mərkəzin direktoru Natella Həsənova bildirdi ki, burada uşaqlar və yeniyetmələrlə reabilitasiya işi aparılır, ünsiyyət, özünəxidmət və sadə əmək vərdişləri formalaşdırılır, çatışmazlıqların korreksiyası üzrə məşqlər keçirilir, sağlamlıq imkanları məhdud şəxslərin sosial statusunun bərpa edilməsi və onların cəmiyyətə inteqrasiyası təmin edilir.

Psixoloq Fərqanə Nağıyeva isə söyləyir ki, reabilitasiyadan keçən uşaqların inkişafında çox böyük irəliləyişlər olur və bu, valideynləri də olduqca sevindirir. Çünki daun uşağa sahib valideynlərin özlərinin də məlumatlandırılmasına, psixoloji dəstəyə böyük ehtiyacları olur. Bunun üçün mərkəzdə tez-tez valideynlər üçün seminarlar təşkil olunur: "Onlara təlqin edirik ki, siz tək deyilsiniz və dövlət tərəfindən sizə dəstək duracaq, övladlarınızın inkişafına kömək edəcək belə bir reabilitasiya mərkəzi yaradılıb".

Psixoloq qeyd edir ki, 4-5 il öncəyə qədər valideynlər daun sindromu ilə bağlı çox məlumatsız idilər: "Bizim mərkəz açılandan sonra isə çox dəyişikliklər oldu. Məsələn, artıq valideynlər övladlarının vəziyyətindən narahat olmadan sərbəst şəkildə ictimai nəqliyyatdan da istifadə edirlər, uşaqlarını cəmiyyətdən təcrid etməyə meyilli olmurlar, əksinə, onların da bu cəmiyyətin lazımlı parçası olduğunu bilirlər".

Fərqanə Nağıyeva bildirir ki, əgər gecikmiş reabilitasiya deyilsə, bu uşaqlarda böyük irəliləyişə nail olmaq olur. Uşaqlar psixodiaqnostika edilir, psixokorreksiyadan keçir, daha sonra isə terapiyalar tətbiq edilir. Bununla yanaşı, uşaqların müsbət inkişafı üçün musiqi, rəqs, rəsm, əl bacarıqları, idman kimi terapiya növlərindən də geniş istifadə olunur. Mütəmadi olaraq uşaqlar səhnəciklər, rəqslər nümayiş etdirirlər.

Daunlu uşaqlara burada həyat dərsi, yaşam, sosiallaşma təlqin edildiyini söyləyən psixoloq məlumat verir ki, elə uşaqlar var ki, hətta müəyyən peşələrə sahiblənirlər. Məsələn, çox gözəl əl əməkləri var, xalça toxuyurlar, papaqçı, yaxud da ayaqqabı ustası ola bilərlər...

### Yazmağa çətinlik çəksələr də, riyazi məsələləri həll edirlər...

Reabilitasiya mərkəzində pedaqoq kimi fəaliyyət göstərən Lalə Qurbanova deyir ki, uşaqların arasında nitq qabiliyyəti olmayan, yaxud zəif və nisbətən yaxşı olanlar var. Danışa bilməyən uşaqlarla loqopedlər, psixoloqlar işləyir və bu sayədə, demək olar, əksəriyyətinin danışığı düzəlir: "Müşahidələrimə əsasən deyə bilərəm ki, daunlu uşaqlarda 7-13 yaşına qədər götürmə qabiliyyəti daha çox olur, yəni onlara öyrətdiklərimizi geri ala bilirik. Onlara ətraf mühit, canlılar haqqında məlumat veririk. 16-17 yaşında uşaqlar var ki, artıq birplanlı riyazi məsələləri həll edə, ən azından 100 dairəsində toplama və çıxmanı bacarırlar. Üzündən kitab oxuya, şeir əzbərləyə bilirlər, tədbirlərdə iştirak edirlər. Təbii ki, onların barmaqları qısa olduğuna görə motorika zəifdir, yazı yazmaqda çətinlik çəkirlər, amma var qüvvəmizlə çalışırıq ki, bunu da aradan qaldıraq. Sevindiricidir ki, hazırda ən azından öz fikirlərini yazan, söyləyən, tədbirlərdə iştirak edən uşaqların sayı artıb".

### Daim Mehriban xanım Əliyevanın diqqətində...

"Qayğı - Sağlam Nəsil Naminə" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi 2013-cü ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunub. Daim uşaqlara qayğı və sevgisini əsirgəməyən Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva və fondun vitse-prezidenti Leyla Əliyeva mərkəzin açılış mərasimində iştirak ediblər.

Mərkəzin əsas və köməkçi binalarla birlikdə ümumi sahəsi 7300 kvadratmetr təşkil edir. Burada kompüter, loqoped, riyaziyyat, astronomiya, psixologiya, məktəbəqədər hazırlıq, valideyn otaqları, biologiya və zoologiya kabinetləri, idman zalı və üzgüçülük hovuzu, kino və teatr zalları var. Həmçinin mərkəzdə heykəltəraşlıq, əmək, xalçaçılıq, tikiş, rəsm dərnəkləri də fəaliyyət göstərir. Mərkəzdəki hovuz iki hissədən - üzgüçülük və müalicə hissələrindən ibarətdir. Binanın yeməkxanasında daun sindromluların rahat qidalanması üçün hər cür şərait yaradılıb. Mərkəzin ərazisində uşaq əyləncə meydançası, köşklər və açıq idman meydançası tikilib.

Mehriban xanım Əliyevanın xüsusi nəzarətində olan mərkəzdə qeydiyyata düşən ürək, görmə və eşitmə qüsurlu daunlu uşaqlar paytaxtın müxtəlif klinikalarında dövlət hesabına müalicə və əməliyyat etdirilir. Bundan başqa, mərkəzdə mütəmadi olaraq daunlu uşaqlar üçün tədbirlər, bayram şənlikləri təşkil olunur. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva həmçinin vaxtaşırı mərkəzi ziyarət edir, onlar üçün təşkil olunan xüsusi bayram şənliklərinə qatılır.

Mərkəzə qəbul 5 yaşından başlasa da, xüsusi yaş məhdudiyyəti yoxdur və hazırda burada 250 daunlu şəxs qeydiyyatdadır.

### Məşhur daunlar

Bəzi ailələr daunlu uşaqlarını dörd divar arasında saxlayır, onları yaxınlarından, qohumlarından gizlədirlər, amma mütəxəssislərin və valideynlərin fəal köməyi nəticəsində daun sindromlu insanlar da həyatda uğur qazana, hətta məşhurlaşa bilirlər.

Məsələn, Pablo Pineda tanınmış ispan aktyorudur. 2009-cu ildə o, "Mən də" filmində ən yaxşı kişi roluna görə beynəlxalq mükafat alıb. Onun bir neçə ali diplomu var. Şotlandiyada anadan olan Paula Saj bir neçə filmdə çəkilib və eyni zamanda çox uğurlu vəkildir. Anna Ann Craft və Mancap kimi beynəlxalq fondlarda vəkil kimi çalışır. Meqan Mak Kormik, Valentino Querrero kimi uğurlu daunlu insanlar çoxdur...

### Həm də sevirlər...

Daun sindromlu uşaqlar xüsusilə ətraflarını tanımağa başladıqca əsəbi davranışlar göstərə bilirlər. Bunun qarşısını almaq üçün onlara qayğıkeş və mehribanlıqla yanaşmaq, vəziyyətlərinin son dərəcə normal olduğunu hiss etdirmək lazımdır. Çünki digər zehni problemlilərlə müqayisədə daunlular fərqliliklərini anlaya bilirlər. Buna görə də özlərinə nifrət etməmələri üçün valideynlər, baxıcılar onların müstəqil yaşamalarını dəstəkləməli, təmin etməlidirlər. Onların hər addımını izləmək yox, əksinə, sərbəstlik vermək lazımdır ki, özlərinə inamları artsın...

Daunlu şəxslər zehni inkişafdan qalsalar da, bu vəziyyət onları duyğu sahibi olmaqdan məhrum etmir. Onlar da sevinir, qüssələnir, kədərlənir, darıxır, inciyirlər... Həm də sevirlər, bunu hiss etdirməyə çalışırlar və sevildiklərinin də fərqində olurlar...

*Yasəmən MUSAYEVA,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*

# Güclü iqtisadiyyat

Əvvəli 1-ci səh.

Bunların hamısı, qeyd edildiyi kimi, güclü iqtisadiyyata əsaslanır. Məsələn, keçən il məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə genişmiqyaslı işlər görülüb. 5800 köçkün ailəsi üçün evlər və mənzillər tikilib. Yüzlərlə ailə Yeni ili yeni gözəl şəraitdə qarşılayıb. 626 yeni mənzillə şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin məişət şəraiti yaxşılaşdırılıb. Prezident İlham Əliyev həmin istiqamətdə işlərin 2019-cu ildə də davam edəcəyini bildirib və bu da Azərbaycan dövlətinin siyasətinin mərkəzində vətəndaşın dayandığını təsdiqləyir.

Dövlət başçısı həmçinin qeyd etmişdir ki, bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən asılı deyil. Azərbaycan iqtisadiyyatı müstəqil iqtisadiyyatdır və bizim müstəqil siyasətimizi gücləndirən amildir. Məhz bu amil ölkəmizə təkcə Azərbaycan üçün deyil, bir çox digər ölkələr üçün də mühüm əhəmiyyət daşıyan layihələri gerçəkləşdirməyə imkan verir. Belə önəmli layihələrdən biri "Cənub qaz dəhlizi"dir. 2018-ci il tarixə bu dəhlizin rəsmi açılışı ili kimi də düşdü. Belə ki, may ayının 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimi keçirildi. Bu, Avropanın enerji xəritəsini dəyişən layihədir ki, Azərbaycan qazını 3500 kilometr məsafə boyu neçə-neçə ölkəyə çatdıracaq. "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində qaz hasilatına başlanması, eləcə də mavi yanacağı Azərbaycanın və Gürcüstanın ərazisindən keçirərək Türkiyə sərhədinə çatdıran Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsinin yekunlaşması bu dəhlizin açılışına imkan verdi.

Sonrakı ayda isə TANAP (Transanadolu Qaz Boru Kəməri) istifadəyə verildi. TANAP-ın işə düşməsi bir daha təsdiqlədi ki, "Cənub qaz dəhlizi" artıq reallığa çevrilir. Çünki TANAP bu dəhlizin 1900 kilometrlik ən böyük hissəsidir. Türkiyənin ərazisi boyu 20-dən çox bölgədən keçən bu kəməri "Cənub qaz dəhlizi"nin onurğa sütunu adlandırırlar.

"Cənub qaz dəhlizi"nin gerçəkləşməsi istiqamətində aparılan uğurlu işlər "Şahdəniz" qazının TANAP-a ötürülməsinə şərait yaratdı. Bu da nəinki layihənin, ümumiyyətlə, regionun tarixində önəm daşıyan hadisə kimi dəyərləndirilir. 2018-ci ildə TAP-ın (Transadriatik Qaz Boru Kəməri) tikintisi də rəvan gedib. Azərbaycan qazını Avropaya çatdıracaq bu kəmər yanacağı TANAP-dan qəbul edəcək. TANAP həm də bu baxımdan əhəmiyyətlidir. Prezident İlham Əliyev təbrikində bu layihələrin tarixi nailiyyət olduğunu qeyd etmişdir.

Azərbaycanın region, hətta bir çox digər ölkələr üçün əhəmiyyətli olan layihələri sırasında Ələt Ticarət Limanı da var. Bu da Azərbaycanın 2018-ci ildə nail olduğu böyük uğurlardandır. Çünki sözügedən limanın vasitəsilə Azərbaycan nəinki regionun, Avrasiyanın önəmli nəqliyyat mərkəzinə çevrilir. Şimal-Cənub, Şərq-Qərb dəhlizləri ölkəmizin ərazisindən keçir. Ələt Ticarət Limanının ərazisində avtomobil, dəmir və su yolları bir-birinə qovuşur ki, bu da güclü nəqliyyat infrastrukturu yaradır. Başqa sözlə, Azərbaycanın tranzit imkanları getdikcə genişlənir.

Ümumiyyətlə, 2018-ci ildən xalqımızın tarixində və yaddaşında qalan xoş hadisələr çoxdur. Keçən il orbitə Azərbaycanın üçüncü peyki buraxılmışdır. Deməli, Azərbaycan dünyanın məhdud sayda olan kosmik klubunun üzvlərindən biridir və bu sahədə öz mövqelərini getdikcə möhkəmləndirir.

2018-ci ildə uzun müddətdir müzakirə olunan bir məsələ də müvəffəqiyyətlə həll olundu. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi öz həllini tapdı və bu işdə Azərbaycan mühüm rol oynadı.

Yeni ilə xalqımız bir-birinin ardınca qazandığı belə böyük uğurların müjdəsi ilə qədəm qoydu. Bu uğurlar həm gələcək işlər üçün möhkəm bünövrə, həm onları həyata keçirmək üçün xoş əhval-ruhiyyə, həm də sabaha böyük inamdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Bilal DÜNDAR:

## "Prezident İlham Əliyevin Türkiyədə "İlin dövlət başçısı" seçilməsi ona olan sevginin göstəricisidir"



Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyədə "İlin dövlət başçısı" seçilməsi bu ölkənin sadə vətəndaşından tutmuş ziyalısına qədər hər kəsin dövlət başçısına sevgisinin və onun gördüyü işlərə qiymətinin göstəricisidir.

Bu fikri AZƏRTAC-a açıqlamasında Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündar bildirib.

Sədr qeyd edib ki, bu sorğu Türkiyənin bütün bölgələrində 570 vətəndaş cəmiyyəti arasında keçirilib. Prezident İlham Əliyev Türkiyədə böyük nüfuza sahibdir. O, ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" prinsipinə sadiq qalaraq Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsi istiqamətində mühüm xidmətlər göstərib. Dövlət başçısı dəfələrlə sübut edib ki, Azərbaycan hər zaman qardaş Türkiyənin yanındadır. Türkiyədə 15 iyul dövlət çevrilişinə cəhd zamanı Prezident İlham Əliyev qardaşı və həmkarı Rəcəb Tayyib Ərdoğana dəstək oldu. Türkiyənin çətin zamanlarında qardaş Azərbaycan tərəfindən uzadılan dost əli sadə türk vətəndaşlarında böyük rəğbət yaradıb. Azərbaycan regionda cərəyan edən siyasi məsələlərdə və beynəlxalq iqtisadi layihələrin reallaşmasında Türkiyəyə dəstək verir. Bütün bunların nəticəsidir ki, İlham Əliyev Türkiyədə "İlin dövlət başçısı" adına layiq görülüb.

Federasiya sədri bildirib ki, Türkiyə də hər zaman qardaş Azərbaycanın yanındadır. Türkiyə Dağlıq Qarabağ münaqişəsini öz problemi hesab edir. Bu münaqişə ilə bağlı həqiqətlər Türkiyə dövləti tərəfindən də beynəlxalq tribunalardan dünya ictimaiyyətinin diqqətinə çatdırılır.

Bilal Dündar qeyd edib ki, Türkiyədə Xocalı faciəsini gənc nəslin yaddaşına həkk etmək üçün onlarca abidə və park istifadəyə verilib. Türkiyənin böyük şəhərlərindən biri hesab olunan Kocaelidə 31 Mart və Xocalı soyqırımları ilə bağlı muzey fəaliyyət göstərir. Burada dünyanın 100-dən çox televiziya kanalı xüsusi reportajlar və sənədli filmlər hazırlayıb. Bundan başqa, Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası ilə birgə fəaliyyət göstərən Heydər Əliyev Mədəniyyət Evində Azərbaycanın tarixini və ədəbiyyatını əks etdirən kitabxana var.

## UNEC brendi Türkiyədə də dövlət qeydiyyatına alındı

Azərbaycan Dövlət İqtisad Universitetinin brendi olan "UNEC" Türkiyədə "Türk Patent və Marka Kurumu" tərəfindən də tanınıb.

UNEC markası Türkiyədəki universitetlər arasında ən çox yayılan 09,16, 35, 41 və 42 saylı təsnifatlara daxil olan xidmət və məhsulları əhatə edir. Bura təhsil və tədris xidmətləri, nəşr, jurnal, kitab, təqvimlər, eləcə də elm və sənaye ilə bağlı tədqiqat və tədqiqat xidmətləri, elmi inkişaf və araşdırma xidmətləri, keyfiyyət və standartların müəyyən edilməsi məqsədi ilə məhsul və xidmətlərin test olunması fəaliyyəti, reklam materialları, bu istiqamətdə digər xidmət və məhsullar daxildir.

Şərtlərə əsasən, növbəti 10 il ərzində UNEC brendi "Türk Patent və Marka Kurumu" tərəfindən də qorunacaqdır. Bir neçə xarici ölkə tərəfindən UNEC brendinin tanınması işi isə tamamlanmaq üzrədir.

Xatırladaq ki, Azərbaycan Dövlət İqtisad Universitetinə məxsus UNEC brendi 2016-cı il yanvarın 21-də Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən rəsmi dövlət qeydiyyatına alınıb.




## Ədliyyə naziri Ağdaşda vətəndaşları qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq, Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.

Yanvarın 7-də ədliyyə naziri Fikrət Məmmədov Ağdaş rayonu Heydər Əliyev Mərkəzində Ağdaş, Yevlax və Ucar rayonlarından olan vətəndaşların qəbulunu keçirib. Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbuluna və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

# Ermənistan ordusunda cinayətlər artıb

### İşğalçı ölkənin silahlı qüvvələrində anarxiya, özbaşınalıq və böyük xaos hökm sürür

Ermənistanda son hakimiyyət dəyişikliyindən xeyli müddət keçməsinə baxmayaraq, ölkədə müsbətə doğru dəyişən heç nə yoxdur. Əksinə, real vəziyyətin təhlili işğalçı ölkədə tənəzzülün daha sürətli xarakter aldığını göstərir. Yaşanan tənəzzül və xoasun özünü qabarıq şəkildə göstərdiyi sahələrdən biri isə ölkənin silahlı qüvvələridir. Yayılan məlumatlar bu ölkənin ordusunda əsl anarxiya, özbaşınalıq hökm sürdüyünü göstərir. Məhz belə bir vaxtda bəlli olub ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən bölmələrdən birində xidmət edən hərbi qulluqçu bıçaqlanıb.



### Hərbi hissələrdə epidemiya tüğyan edir

Başqa bir cinayətlə bağlı hərbi prokurorluq tərəfindən təhqiqat aparılarkən təsadüf nəticəsində bıçaqlanma hadisəsinin üstü açılıb. Məlum olub ki, bu cinayət uzun müddət hüquq-mühafizə orqanlarından gizlədilib. Faktla bağlı cinayət işi açılıb və Manuk Mirzoyan adlı hərbi qulluqçu istintaqa cəlb olunub. Hadisənin digər iştirakçılarının müəyyən olunması istiqamətində təhqiqat davam edir. Amma erməni mediası yazır ki, belə hadisələrin sayı yüzlərlədir. Elə bunun nəticəsində orduda fərarilik, intihar, hallarının sayı artır. Hərbi hissələrdə, həmçinin epidemiya tüğyan edir. Elə bu günlərdə səksənə yaxın əsgər ağır vəziyyətdə hospitallara yerləşdirilib.

Digər tərəfdən, Ermənistan ordusunun bölmələrində özbaşınalıq və qanunsuzluqlar səbəbindən ölən və yaralananların sayı artmaqda davam edir. Ötən ilin dekabr ayı ərzində düşmən ordusu daha yeddi hərbçisini itirib.

Dekabrın 15 günü ərzində qeyri-döyüş şəraitində, özbaşınalıq səbəbindən yaralananların sayı 10 nəfər olub. Epidemiya, soyuqların düşməsi və qar yağması aclıqdan, şəraitsizlikdən əziyyət çəkən hərbçilər üçün bəlaya çevrilib. Əsgərlər müxtəlif virus xəstəliklərindən əziyyət çəkirlər. Tibbi heyət problemin qarşısını almağa çalışsa da, dərman preparatları və zəruri ləvazimatların çatışmaması səbəbindən profilaktik tədbirlər görmək mümkün olmur.

### Ötən il 39 hərbçi həlak olub

Baş verənlərlə bağlı Ermənistanın "1in.am" saytı yazır: "2018-ci il boyunca - yanvarın 1-dən noyabrın 10-dək Ermənistan silahlı güclərində qeyri-nizamnamə münasibətləri nəticəsində, yaxud texniki səbəblərdən daha çox hərbçi həlak olub, nəinki qarşı tərəfin göstərdiyi fəaliyyətdən. Hesablamalara əsasən, 2018-ci ildə silahlı güclərdə 7-i (ümumi sayın 18 faizi) qarşı tərəfin gülləsindən, 32-si (82 faiz) Ermənistan və Dağlıq Qarabağda müxtəlif səbəblərdən olmaqla, ümumilikdə 39 hərbçi həlak olub.

Qaldırılan cinayət işlərinə əsasən, 32 əsgər texniki səbəb, bədbəxt hadisələr, intihar və xidmət yoldaşının atəşindən, qar uçqunundan və aviaqəzada həlak olub. Yumşaq deyilsə, bu statistik mənzərə faciəlidir. Rəqəmlər xəbər verir ki, ötən il Ermənistan-Azərbaycan ön cəbhə xəttində ən gərgin il olmayıb.

O biri yandan, Ermənistan ordusunda qeyri-nizamnamə münasibətlərinin nəticəsi olan itkilər böyükdür. Bu, özəlliklə təşvişlidir və ondan xəbər verir ki, əslində, Nikol Paşinyanın inqilabdan sonra bir neçə ictimai çıxışlarının məhz bu mövzuya həsr edildiyinə baxmayaraq, orduda keyfiyyət dəyişiklikləri baş verməyib.

Əlbəttə, heç bir ordu insidentlərdən, fors-major durumlardan sığortalanmayıb, amma hətta bu cəhət də Müdafiə Nazirliyinin məsulları üçün alibi ola bilməz. Savaşda olan ölkənin silahlı güclərində qeyri-döyüş itkiləri bu qədər böyük olanda və ön cəbhədə qeydə alınan qurbanları, demək olar, beş dəfə üstələyəndə bu, ondan xəbər verir ki, istənilən an genişmiqyaslı savaş aça biləcək düşməndənsə "daxili düşmən" daha qəddar və məkrlidir.

"Daxili düşmən" deyilən daha tutumlu anlayışdır, korrupsiyaya da, həm zabit heyəti təmsilçilərinin öz vəzifələrini gərəkməz icrasına, həm də nəzarət mexanizminin naqisliyinə də aiddir. Özü də biz nəzarət mexanizminə daha geniş müstəvidə baxırıq: söhbət bizim silah qüvvələrin mahiyyətcə həm keçmiş sistemdə, həm də inqilabdan sonra parlamentin və cəmiyyətin nəzarətindən qıraqda qaldığından gedir. Ordudan danışmaq, ya da ordunu tənqid etməyin tabu olduğu haqda stereotipi aradan qaldırmağın zamanı çatıb. Bu saxta tezis illər boyu buna səbəb olub ki, orduda korrupsiya tendensiyaları çiçəklənib, yığılmış problemlər isə həll olunmaq yerinə sistemli xarakter alıb".

### "Hökumət aprel müharibəsindən nəticə çıxarmalıdır"

Məqalədə hüquq müdafiəçisi Janna Aleksanyanın da fikirlərinə yer verilib. Bildirilib ki, əsasən qapalı müəssisələrdə insan haqlarını araşdırdığından bu sahələrdə özəl dəyişikliklər gözə dəymir. Hüquq müdafiəçisi deyib: "Orduda David Tonoyandan savayı heç bir dəyişiklik olmayıb. Ölümlər davam edir, bu məsələlərin araşdırılması qabaqkı kimi gedir, çox pis təhqiqat aparılır, işlər açılmır. Ordudakı durum cəzasız qalmaqdadır. İnsan hüquqları sahəsində özgə, aşkar uğurlar görmürəm".

Sonda sayt vurğulayıb ki, özlüyündə aydındır ki, islahatlar mövzusu geniş siyasi, ictimai diskursun mövzusu olmalıdır: "Hökumət 2016-cı ilin aprel müharibəsindən nəticə çıxarmalıdır - ordunun döyüş bacarığı haqda təbliğat tezisi hamımızın gözü qabağında buxarlandı: onlarla gənc döyüş hazırlıqsızlığı və ordunun mənəvi aşınmasının qurbanı oldu. İnqilabdan sonra bir-iki səs-küylü korrupsiya ifşasına deyil, Ermənistan silahlı güclərinin yeni keyfiyyət səviyyəsi qazandığından danışmağa imkan verən institusional islahatlara vurğu etmək gərəkdir".

### 12 ölüm, 14 yaralanma faktı

Bütün bu qeyd edilənlərdən aydın olur ki, düşmən ordusunda çöküş işğalçı ölkənin özündədə açıq etiraf olunur. Amma erməni cəmiyyətini narahat edən həm də Gümrüdə yerləşən 102-ci hərbi baza ilə bağlıdır. Artıq Helsinki Vətəndaş Assambleyasının Yerevan ofisi isə 102-ci hərbi baza ilə bağlı araşdırmalara başlayıb. Məlumata görə, 20 il ərzində bu hərbi hissədə 12 ölüm, 14 yaralanma faktı qeydə alınıb. Burada qulluq keçən əsgərlər yerli əhali ilə kobud davranır, soyğunçuluqla məşğul olurlar. Zaman-zaman bu hallar faciə ilə nəticələnir.

Gümrü sakini olan Avetisyanlar ailəsinin bütün 7 üzvü bir neçə il əvvəl qətlə yetirilib. Vaxramaberd kəndində törədilən partlayış nəticəsində iki azyaşlı ölüb. Son insident zamanı isə daha bir Gümrü sakini - 57 yaşlı Culyetta Quqasyan səhər işə getdiyi zaman hərbçi tərəfindən əvvəlcə vəhşiliklə döyülüb, sonra isə güllələnib. Qadının həyatını xilas etmək mümkün olmayıb. Sonuncu hadisənin ardından Yerevanda və Gümrüdə etiraz aksiyaları başlayıb.

Narazı kütlə 102-ci hərbi bazanın Ermənistandan çıxarılmasını tələb edir. Amma bu tələbin yerinə yetirilməsi müstəqil olmayan indiki erməni hakimiyyəti üçün mümkünsüz sayılır. Məhz bu vəziyyətdə Ermənistanın həm xaricdən asılılığının davam etməsi, həm də bütün sahələrlə yanaşı, ordusunda da çöküşün yaranması qaçılmaz sayılır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Neft kapitalı iqtisadi inkişafa və sosial rifaha xidmət edir

Məlumdur ki, Azərbaycan iqtisadiyyatının əsasını neft sənayesi təşkil edir. Günü bugünədək neft sektoru ölkə iqtisadiyyatında lokomotiv rolunu oynayır. Müstəqilliyimizin bərpasından sonra yaranmış iqtisadi durğunluğu aradan qaldırmaq üçün də neft amilindən istifadə olunmuşdur. 1994-cü il sentyabrın 20-də bağlanan "Əsrin müqaviləsi" məhz buna xidmət edirdi.

Həmin müqavilənin imzalanmasından sonra ölkənin hərtərəfli inkişafa nail olunması üçün milli neft strategiyası işlənib hazırlanmışdır. Məqsəd neft sektorunun imkanlarından istifadə etməklə iqtisadi inkişafa nail olmaq və bu hesaba əhalinin sosial rifahını yaxşılaşdırmaq idi. Bununla əlaqədar ümummilli lider Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli fərmanı ilə Azərbaycanda Dövlət Neft Fondu təsis edilmişdir.

Ümumiyyətlə, neftlə zəngin olan ölkələrdə belə fondların təsis edilməsi bu təbii sərvətdən gələn qazancın nəsillər arasında bərabər bölgüsünə, onların səmərəli və məqsədyönlü şəkildə idarə edilməsinə şərait yaradır. Hazırda Azərbaycan Respublikası Neft Fondu (ARDNF) institusional cəhətdən çox yüksək səviyyədə formalaşmaqla bərabər, ölkə daxilində, eləcə də beynəlxalq səviyyədə tanınan və vəsaitlərin idarə edilməsi, şəffaflığın təmin edilməsi baxımından öz təcrübəsini bölüşdürməyə qadir olan qurumdur. Çünki ARDNF yaradılarkən analoji dünya təcrübəsinə istinad edilməklə yanaşı, yerli xüsusiyyətlər və ehtiyaclar nəzərə alınmış, neft gəlirlərinin gələcək nəsillər üçün toplanması ilə bərabər, bugünkü nəsillərin problemlərinin həlli üçün də istifadə edilməsini nəzərdə tutan model seçilmişdir.

Yaradıldığı gündən şəffaflıq ARDNF-nin fəaliyyətinin əsas prinsiplərindən biridir. Fond institusional cəhətdən və şəffaflığın təmin edilməsi baxımından çox yüksək səviyyədə inkişaf etmiş, müasir standartlara cavab verən beynəlxalq səviyyəli maliyyə təşkilatına çevrilmiş və Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasına xidmət edən bir çox nailiyyətlər əldə etmişdir. Bu, ARDNF-nin 2018-ci ilin yanvar-sentyabr ayları üzrə gəlir və xərclərinə dair məlumatda da əksini tapıb.

Məlumatda bildirilir ki, hesabat dövründə ARDNF-nin büdcə gəlirləri 14 milyard 437,2 milyon, büdcə xərcləri 8 milyard 5,9 milyon manat təşkil etmişdir. Bu aylar ərzində ARDNF-in neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 13 milyard 441,6 milyon, o cümlədən mənfəət neftinin və qazın satışından 12 milyard 658,1 milyon, bonus ödənişləri 765,2 milyon, akrhesabı ödənişləri 4,1 milyon, tranzit gəlirləri 14,2 milyon manat olmuşdur. Hesabat dövrü ərzində ARDNF-nin vəsaitlərinin idarə olunmasından əldə edilən gəlirlər 995,6 milyon manata çatmışdır.

Fondun 2018-ci il büdcəsinin icrası çərçivəsində 7 milyard 788 milyon manat vəsait dövlət büdcəsinə transfer edilmişdir. Bundan əlavə, qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 138,6 milyon, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 41,7 milyon, Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə 16,7 milyon manat vəsait ayrılmışdır. 5 milyon manat vəsait "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə yönəldilmişdir. 2018-ci ilin yanvar-sentyabr ayları ərzində ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri 15,9 milyon manat olmuşdur.

Hesabatda o da bildirilir ki, valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-nin büdcədənkənar xərci 968,7 milyon manat təşkil etmişdir.

2018-ci il oktyabrın 1-nə ARDNF-nin aktivləri 2018-ci ilin əvvəlinə (35 milyard 806,5 milyon dollar) nisbətən 8,88 faiz artaraq 38 milyard 987,7 milyon dollara çatmışdır. Aktivlərin artımı fondun büdcə gəlirləri, o cümlədən vəsaitlərin idarə olunmasından əldə edilən gəlirlər hesabına olmuşdur.

Onu da qeyd edək ki, bu sərvətdən ölkənin inkişafı və əhalinin sosial rifahı üçün düzgün istifadə olunmayan dövlətlərdə problemlər yaranır. Bizdə isə neft gəlirlərindən istifadədə tam şəffaflıq təmin olunub. Fondun vəsaitlərindən istifadə edilən sahələr isə əsasən sosial infrastrukturun yenidən qurulması və məcburi köçkünlərin məişət şəraitlərinin yaxşılaşdırılmasıdır.

Prezident İlham Əliyev ölkədə icra edilən sosial infrastruktur layihələri ilə bağlı demişdir: "Bu il Bakıda iyirmiyə yaxın məktəb əsaslı təmir edilib, tikilib. Bölgələrdə yüzlərlə məktəb təmir edilib, o cümlədən 137 modul tipli məktəbin tikintisi nəzərdə tutulub, 42 tibb müəssisəsində təmir-tikinti işləri aparılmışdır... Digər infrastruktur layihələri ilə bağlı işlər qrafik üzrə gedir. Bu il 1200 kilometr yol çəkilib. Hədəf 2000 kilometrdir. Biz bu hədəfə çatacağıq. Bu il 600 kəndin yolları abadlaşdırılır. İçməli su layihələri, meliorativ tədbirlər uğurla icra edilir. Bu il biz 100 min hektar torpağa su gətirmişik, 270-dən çox subartezian quyusu qazılıb, hələ ilin sonuna qədər 30-u da qazılacaq".

Bundan əlavə, indiyədək məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün hər cür infrastrukturu olan 100-dən çox şəhərcik salınıb. Təkcə bu il Sumqayıt şəhərində, Kürdəxanı, Mehdiabad, Ramana, Masazır qəsəbələrində, Abşeron, Tərtər, Qaradağ rayonlarında məcburi köçkünlər üçün binalar, evlər tikilib. Keçən ilin 9 ayında 2900 məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunub. İlin sonuna qədər əlavə 2800 ailə evlərlə, mənzillərlə təmin edilib. Beləliklə, bu il 5700 ailə - təxminən 25 min insan ev sahibi olacaq. Bununla da mənzillə, evlə təmin edilən məcburi köçkünlərin sayı 300 minə çatacaq.

Göründüyü kimi, neft kapitalından şəffaf şəkildə ölkənin ümumi inkişafı və əhalinin sosial rifahının yaxşılaşması üçün istifadə edilir. Üstəlik, bu vəsait hesabına Azərbaycan dünyada ən mükəmməl sosial infrastruktura malik olan ölkələr sırasına daxil olub. Ölkəmizdə icra edilən infrastruktur layihələrin bir çoxu nəinki regionumuz, hətta dünya üçün əhəmiyyətlidir. Belə əhəmiyyətli layihələrin icrası davam edir və sözsüz ki, böyük vəsait tələb edən həmin layihələr neft kapitalı olmadan mümkün deyil.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# REGİONLAR





# Yeniləşən qədim Şəki

Yerli və xarici turistlərin üz tutduğu Şəki qış günlərində də qonaq-qarasız olmur. Son illər bir-birinin ardınca təşkil olunan beynəlxalq festivallar Şəkiyə marağı daha da artırmışdır. Şəki Şəhər İcra Hakimiyyətinin Memarlıq və tikinti şöbəsinin rəisi Taleh Alxasov deyir ki, Səki qədim şəhər olduğu qədər də məxsusi özəllikləri var. Ona görə burada istənilən tikinti işlərinə başlamazdan əvvəl yüz ölçüb, bir biçirik. Şəki şəhərinin UNESCO-nun Dünya İrs Siyahısına daxil edilməsi məsələsi də gündəlikdədir. Bu işdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xidmətləri xüsusi olaraq qeyd edilməlidir. Onu da bildirək ki, Şəki dünyada 68-ci sənətkarlar şəhəri kimi qəbul olunmuşdur və bu, əlamətdar hadisədir. Artıq tarixi abidələrin üstünlük təşkil etdiyi şəhərin Yuxarıbaş hissəsində dövlət başçısının sərəncamı ilə abadlıq işlərinə başlanıb. Hazırda icrası nəzərdə tutulan işlərin siyahısı tutulur.






## Sakinlər “Asan Yol”a çıxırlar

Keçən il oktyabr ayının sonunda Prezident İlham Əliyevin Şəki şəhərinə etdiyi işgüzar səfəri bu məkana yeni nəfəs, canlanma gətirdi. Səfər çərçivəsində ümummilli lider Heydər Əliyevin adını daşıyan mərkəzin, muzeyin, eləcə də Bayraq meydanının, yeni innovasiyaların tətbiq edildiyi “Asan Həyat” kompleksinin açılması əlamətdar hadisə oldu.

“Asan Həyat”ın tərkibində yaradılan “Asan Yol” isə ilklərdəndir. Bu layihənin mahiyyəti ondan ibarətdir ki, insanlar avtomobillərindən düşmədən ilk pəncərədən sənədlərini “Asan xidmət”in əməkdaşlarına təqdim edib sonuncu pəncərədən hazır sənədlərini götürə bilirlər. Buradakı “7D” kinotetarı, salınan park ərazinin gözəlliyini daha da artırıb.

## Keramika Mərkəzi: sənətkarların sevimli məkanı

“Asan Həyat” kompleksinin tərkibinə daxil olan “Asan ABAD”ın da özünəməxsus yeri var. Burada məqsəd ailə biznesinə asan dəstəyin verilməsidir. Həmin qurum “Asan xidmət”in binasında yerləşməli idi. Lakin şəhər icra hakimiyyəti başçısının təşəbbüsü və “Asan xidmət”in rəhbərliyi ilə məsləhətləşmələrdən sonra belə qərara gəlindi ki, “Asan ABAD” Xan sarayı yaxınlığındakı qala ərazisində olsun. Əvvəl qarnizon binası, sonradan xəstəxana kimi istifadə edilmiş qədim bina bərpa olunaraq yeni quruma verildi. Prezidentin açılışını etdiyi bu yer hazırda Keramika Mərkəzi kimi fəaliyyət göstərir.

Şəhərə gələn turistlərin sayının artması burada yeni hotellərin tikilməsi zərurəti yaradır. Ona görə də artıq şəhər ərazisində bir neçə hotelin tikintisi aparılır.

## Şəhərin su təchizatı təmin olunur

Şəhərdə reallaşdırılan infrastruktur layihələri arasında su-kanalizasiya sisteminin yenidən qurulması məsələsi xüsusi qeyd edilməlidir. Layihə işləri Azərbaycan hökuməti ilə Almaniyanın KWF Bankı tərəfindən aparılır. Beş mərhələdən ibarət olan layihənin artıq üçüncü mərhələsi yekunlaşıb və dördüncü mərhələyə hazırlıq görülür. Ümumilikdə isə işlərin orta hesabla 70 faizi yekunlaşıb. İşin bir qədər ləng aparılmasının səbəbi şəhərin relyefi ilə bağlıdır. İş görülən ərazilərin əsas xəttin keçdiyi yerdən çox aşağıda və ya hündürlükdə olması ümumi prosesə təsirsiz ötüşmür. Bundan başqa, boruların həyətlərdən keçən hissələrində də problemlər yaşanır.

Qeyd olunan problemlərə baxmayaraq, artıq lazımi yerlərdə sutəmizləyici qurğular quraşdırılıb. 2019-cu ildən etibarən mərkəzləşdirilmiş qaydada suyun verilməsinə başlanılacaq. İstehlak olunan suyun dəyərinin ödənilməsi məqsədilə bütün həyətlərdə su sayğacları quraşdırılıb.

Şəki şəhərində içməli su xətləri Kiş çayından və şəhərdəki artezian quyularından çəkilir.

## Sel suları ram ediləcək

Şəki dağlıq ərazidə yerləşdiyindən burada sel suları da çox olur. Hazırda küçələrdə su axını üçün arxlar qazılır. Lakin bu işdə də çətinliklər var. Belə ki, əvvəllər suyun axını həyətlərdən keçən kürəbəndlər vasitəsilə aparılırdı. O dövr şəhəri sel sularının basmaması üçün axan sular məhəllələr üzrə bölünürdü. Lakin son illər bu qaydalar pozulduğundan yağmurlar vaxtı şəhərin müxtəlif ərazilərində yağış sularının yığılıb qalması müşahidə olunur. Ona görə də pozulmuş köhnə sistemin daha münasib qaydada bərpasına çalışırlar.

***Əli SƏLİMOV,***
***“Azərbaycan”***

# Qış nə qədər sərt keçsə də...

Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşən dağlar diyarı Gədəbəydə qış sərt keçsə də, sakinlər buna alışmışlar. Onlar bunu nəzərə alaraq qış ehtiyatını hələ yay aylarında görürlər. Soyuq aylarda evlərin isidilməsində də elə bir problem yaşanmır. Dövlət başçısının diqqət və qayğısı sayəsində rayonun mavi yanacaqla təminatı həll edilmiş, əvvəllər odun tədarükündə yaranan çətinliklərə son qoyulmuşdur.









Havaların soyuq, dumanlı və çiskinli günündə yolumuzu Gədəbəyə saldıq. 6 kilometr hissəsinin aşırımlı olması bir qədər çətinlik yaratsa da, bu işin öhdəsindən gəldik. Yol boyu gördüyümüz əkin sahələrinin şumlanaraq yaz-tarla işlərinə hazırlanması deməyə əsas verir ki, torpaq sahibləri gələn il bol məhsul istehsal etmək arzusundadırlar. Bəs, gədəbəylilər ötən ili hansı göstəricilərlə başa vurublar?

Rayon Aqrar İnkişaf Mərkəzinin rəisi Asəf Nağıyevlə də söhbətimiz əsasən bu barədə oldu. O dedi ki, kənd təsərrüfatının elə bir sahəsi yoxdur ki, nailiyyət qazanılmasın. Taxılçılar 1585,3 hektar sahədən 4375 ton buğda götürərək hər hektarın məhsuldarlığını 27,6 sentnerə çatdırdılar. Kartofçuluqda yüksək göstəriciyə nail olundu. 11810 hektar sahədə kartof əkən kənd sakinləri 126367 ton məhsul götürdülər ki, bu da hər kektardan 107 sentner məhsul deməkdir. Kənd təsərrüfatının digər sahələrində də yüksək göstəricilər əldə edildi. Pomidor, xiyar, soğan, kələm, yerkökü, sarımsaq istehsalı da əvvəlki illərdəkindən xeyli çoxdur. Qarğıdalı, yonca və paxlalı bitkilərin məhsuldarlığı da yüksək olmuşdur.

Məhsul bolluğu yaradılmasında dövlət onlara daim dəstək verir. Hər il taxıl istehsalına, işlədilən motor yağlarına, hətta saxlanan hər arı ailəsinə görə dövlət tərəfindən torpaq sahiblərinə subsidiyaların verilməsi onları məhsul bolluğu uğrunda daha əzmlə mübarizə aparmağa ruhlandırır. Fermerlərə güzəştli qiymətlərlə texnikalar satılır. Odur ki, hər bir kənd sakini də məhsul bolluğu yaradılmasında əlindən gələni əsirgəmir. Qeyd etmək lazımdır ki, ötən il 3277 nəfər yetişdirdiyi məhsula görə dövlətdən 157908,2 manat subsidiya almış, fermerlərə 200 ton güzəştli qiymətlərə gübrə verilmişdir.

Gədəbəy heyvandarlığın inkişafı üçün əlverişli imkanlara malik rayonlardandır. Odur ki, rayon sakinləri bu sahənin inkişaf etdirilməsinə böyük maraq göstərir, istəklərinə nail olurlar. Hazırda görülən tədbirlər nəticəsində rayonda 48812 baş qaramal, 243452 baş davar saxlanılır. Heyvanların baş sayının belə sürətlə artırılmasının nəticəsidir ki, ət, süd, yun istehsalında yüksək göstəricilərə nail olunmuşdur.

İstehsal olunan ət və süd məhsullarının bir hissəsi bazar qiymətlərindən 20-30 faiz aşağı qiymətə Bakıda təşkil olunan kənd təsərrüfatı yarmarkalarında satılır.

Keçən il rayon arıçıları da yüksək nəticələr əldə etmişlər. Hazırda Gədəbəydə 234 sakin arıçılıqla məşğuldur. Onlar 2819 arı ailəsi saxlayırlar. Hər arı ailəsinə görə sakinlərə 10 manat subsidiya verilməsi üçün qeydiyyat aparılmışdır.

İndi qışın qarlı-şaxtalı çağıdır. Ancaq qış ayları nə qədər sərt keçsə belə, gədəbəyliləri narahat etmir. Onlar aylarla çəkdikləri zəhmətin bəhrəsini götürüb qış günlərində isti evlərinə sığınır, yetişdirdikləri kənd təsərrüfatı məhsullarından istifadə edir, yeni mövsümə enerji toplayırlar.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# İdman inkişaf edir

Şirvana gənclər şəhəri də deyirlər. Bu, ilk növbədə keçən əsrin 50-60-cı illərində sənayenin inkişafı ilə əlaqədar respublikamızın ayrı-ayrı rayonlarından, habelə keçmiş SSRİ-nin müxtəlif regionlarından buraya gənclərin gəlib məskunlaşması ilə bağlı olmuşdur. Gənclik insan həyatının qaynar dövrüdür.



O vaxtlar ölkə və şəhər rəhbərliyi gənclərin asudə vaxtlarının sağlam məcraya yönəldilməsi və səmərəli keçməsi üçün tədbirlər görürdü. Bu məqsədlə idman və bədən tərbiyəsinin inkişafına böyük önəm verilirdi. Müntəzəm olaraq neftçilər, energetiklər, inşaatçılar, zavod, fabrik və digər müəssisələr arasında futbol, voleybol, güləş, boks və idmanın digər növləri üzrə yarışlar keçirilirdi.

Ümummilli lider Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövründə, ölkənin hər yerində olduğu kimi, Şirvanda (o zaman Əli Bayramlı adlanırdı) da uşaq-gənclər idman məktəbləri fəaliyyətə başlamış, şahmat məktəbi tikilib istifadəyə verilmiş, idman qurğularının sayı və keyfiyyəti xeyli yaxşılaşmış, nəticə etibarilə bu sahədə xüsusi canlanma yaranmışdı. Həmin ənənə bu gün də davam edir. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində indi Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Respublikamız mötəbər beynəlxalq idman tədbirlərinə evsahibliyi edir. Ölkə idmanının inkişafında Şirvan şəhərinin də öz sanballı payı var.

Hazırda Şirvanda iki uşaq-gənclər idman məktəbi fəaliyyət göstərir. Gənclər və idman idarəsinin nəzdindəki Uşaq-gənclər idman məktəbi və “Təhsil” Respublika İdman Mərkəzinin tabeliyində olan Şirvan Şahmat məktəbi, “Neftçi” və kikboksinq idman klubları, şəhərin olimpiya idman kompleksi də peşəkar idmançıların yetişməsində baza rolu oynayır. Qeyd olunan idman müəssisələrində və təşkilatlarında idmanın boks, sərbəst və yunan-Roma güləşi, cüdo, şahmat, stolüstü tennis, futbol, voleybol, kikboksinq, bədii gimnastika, üzgüçülük, karate, universal döyüş növləri inkişaf edir. Bu idman növləri ilə 2 min 620 yeniyetmə və gənc məşğul olur.

2013-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə açılış mərasimi keçirilmiş Şirvan Olimpiya İdman Kompleksi şəhərdə idmanın inkişafına böyük töhfə oldu. Gənclər və idman idarəsi də maddi-texniki bazanın möhkəmləndirilməsi, idmanın kütləviliyinin artırılması, istirahət yerlərində bədən tərbiyəsi və idmanın inkişafı üçün müəyyən işlər görür, məhəllə komandalarının yaradılması istiqamətində layihələr həyata keçirir. Bunun nəticəsidir ki, nəinki idarə və müəssisələrdə, əmək kollektivlərində, habelə yaşayış massivlərində yaradılmış komandaların iştirakı ilə futbol, voleybol, stolüstü tennis üzrə şəhər çempionatları keçirilir.

2018-ci ilin ötən dövrü ərzində keçirilən şəhər miqyaslı yarışlarda 2 min 556 yeniyetmə və gənc iştirak etmişdir. Gənclər və İdman Nazirliyi tərəfindən təşkil edilən turnirlərdə 222 yeniyetmə və gənc idmançı Şirvanı təmsil etmiş, onlardan 13-ü 1-ci, 9-u 2-ci, 25-i 3-cü yerə layiq görülmüşdür. Şəhərin tennis komandası isə respublika birinciliyində 3-cü yeri tutmuşdur.

Astarada 13-14 yaşlı oğlanlar arasında IX Respublika Oyunlarının proqramına daxil edilmiş həndbol yarışlarında şirvanlı yeniyetmələr 1-ci yerin sahibi olmuşlar. Ağdamda ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş universal döyüş üzrə beynəlxalq turnirdə iştirak edən 15 gəncdən 5-i 1-ci, 2-si 2-ci, 3-ü 3-cü yerləri tutaraq Şirvana qələbə sevinci ilə qayıtmışdır.

Bakıda pauerliftinq idman növü üzrə açıq Azərbaycan kubokunda Şirvan şəhərinin 3 idmançısı mükafatçılar arasında olmuşdur. Sahil Şərifov 1-ci, Bəxtiyar Əmrəliyev və Zabil Əliyev 3-cü yerləri tutmuşlar.

Şirvanlı idmançılar xarici ölkələrdə keçirilən beynəlxalq yarışlarda da ölkəmizi layiqincə təmsil edirlər. Belə ki, Rusiyanın paytaxtı Moskvada sərbəst güləş üzrə beynəlxalq turnirdə şirvanlı idmançı Fərid Elşən oğlu Cabbarov 1-ci yeri tutub Dövlət himnini səsləndirmiş, bayrağımızı dalğalandırmışdır. Gürcüstanda sərbəst güləş üzrə yeniyetmələrin Tbilisi beynəlxalq turnirindən isə gümüş medalla qayıtmışdır.

Türkiyənin Gəbzə şəhərində 21-ci Zəfər kuboku yarışında sərbəst güləşçi Əbülfəz Nəsirov çempion olmaqla Şirvan idmançısının nəyə qadir olduğunu nümayiş etdirmişdir. Bunun ardınca o, Xorvatiyanın Zaqreb şəhərində yeniyetmələrin dünya birinciliyində 3-cü yeri tutmağa müvəffəq olmuşdur. Əbülfəz həm də İran İslam Respublikasında sərbəst güləş üzrə “Yadigar imam kuboku” adlı tədbirdə şəxsi və komanda yarışlarında 2-ci yeri tutmuşdur.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən Şirvan Gənclər Evinin tikilib istifadəyə verilməsi burada yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkil olunmasına, gənclərdən ibarət komandaların formalaşmasına, gənc nəslin müxtəlif istiqamətlər üzrə dərnəklərdə fəaliyyət göstərməsinə, idmanın inkişafına, xüsusilə də fiziki cəhətdən qüsurlu yeniyetmələrin reabilitasiyası və onların bədən tərbiyəsi və idmanla məşğul olmasına şərait yaratmışdır. Bütün bunlar, ölkəmizin hər yerində olduğu kimi, Şirvanda da gənclərimizə göstərilən qayğı və diqqətin təzahürüdür.

***Seyran CAVADOV,***
***“Azərbaycan”***

# Yeni ilə uğurlarla

Dövlətin cəbhə bölgəsinə davamlı qayğısı, düşmənlə təmas xəttinə yaxın ərazilərdə yerləşən yaşayış məntəqələrində sosial problemlərin uğurlu həlli tərtərlilərdə də qələbə əzminin, yüksək əhvali-ruhiyyənin əsas şərtlərindəndir. Ölkə rəhbərinin Tərtərə hər səfəri də rayonun sosial-iqtisadi inkişafına güclü təsir edir. Bunun müqabilində tərtərlilər də böyük həvəslə, əllərinin hərarətini, ürəklərinin təpərini əsirgəmədən çalışır, tikib-qurur, abadlıq yaradırlar.




Baxmayaraq ki, qarşı tərəf - ermənilər atəşkəs rejimini tez-tez pozurlar. Lakin sakinlər mərmi gurultusuna, güllə vıyıltısına adət etmişlər. Milli Ordumuzun gücünə, qüdrətinə güvənir, əkin-biçin işləri ilə məşğul olur, istehsal etdikləri kənd təsərrüfatı məhsulları sayəsində həm öz ailələrinin həyatını, xoş güzəranını təmin edir, həm də ölkə iqtisadiyyatına sanballı töhfələr verirlər.

Uğurlu illər sırasında 2018-ci ilin də özünəməxsus yeri vardır. İstər tikinti, abadlıq, quruculuq, istərsə də kənd təsərrüfatı sahəsində irəliyə doğru inamlı addımlar atılmışdır.

Rayonun iqtisadiyyatının əsasını isə kənd təsərrüfatı təşkil edir. Torpaq münbit, əmək ehtiyatları kifayət qədər yetərli olsa da, suvarma suyu sarıdan çətinliklər yaranır. Sərsəng su anbarı Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğundan xain və nankor qonşularımız Tərtər çayının yatağına lazım olan vaxtlarda su buraxmırlar. Buna baxmayaraq, tərtərlilər ikiqat enerji ilə çalışır, imkanlardan maksimum istifadə edərək yüksək nəticələr qazanırlar.

Götürək elə pambıqçılığı. Dövlət başçısının bu sahəni inkişaf etdirmək barədə tapşırıq və tövsiyələrini fəaliyyət proqramı kimi qəbul edən tərtərlilər inişil hər hektardan 27 sentner “ağ qızıl” götürərək respublikanın pambıqçılıq rayonları arasında birinci oldular. Qazanılan nailiyyətlərdən arxayınlaşmayan rayon pambıqçıları yenə də qabaqcıllar sırasında yer alırlar. 2018-ci ildə 3.300 hektar sahədə pambıq əkilmiş, tarlalar yüksək aqrotexniki qaydalar əsasında becərilərək bol məhsul yetişdirilmişdir. Məhsul yığımının yaxşı təşkili sayəsində tədarük məntəqələrinə 7.800 tondan çox “ağ qızıl” təhvil verilmişdir.

2018-ci ili rayonun “sarı kəhrəba” ustaları üçün də uğurlu saymaq olar. 11.556 hektar sahədən 44.175 ton taxıl götürülmüşdür. Buğda sahələrinin hər hektarında orta məhsuldarlıq 41.1 sentner olmuşdur. Kümçülər 10.228,3 kiloqram barama istehsal etmişlər. Qazanılan nəticə 2017-ci ildəkindən 2,3 dəfə çoxdur. Kənd əməkçilərində bu sahəyə böyük maraq var. Odur ki, baramaçılığın inkişafında yem bazasının möhkəmləndirilməsinə önəm verilir. Qabaqcıl fermerlərdən Mirzə Cümşüdov söhbət zamanı dedi ki, aqrar sektorun inkişafına dövlətin güclü dəstəyi sakinlərə qol-qanad verir. Biz əsasən toxumluq taxıl istehsal edirik. Bundan əlavə, mal-qara saxlayır, pambıq əkir, arıçılıqla məşğul oluruq. Son illər baramaçılıq sahəsində də yaxşı nəticələr qazanırıq. Baramaçılıq çox sərfəli və gəlirli sahədir. 2018-ci ildə 8 qutu ipəkqurdu toxumundan 380 kiloqram barama götürüb 3.500 manat qazandıq. Nəticələr bizi qətiyyən arxayınlaşdırmır. 40 hektarda taxıl səpinini başa çatdırmışıq. Baramaçılığın yem bazasını möhkəmləndirmək üçün zəruri tədbirlər görürük. Bizim təsərrüfatda Çin Xalq Respublikasından iki il əvvəl gətirilmiş 16.500 ədəd məhsuldar çəkil tingi əkilmişdir. Keçən il becərdiyimiz ipəkqurdlarını bol və keyfiyyətli yemlə təmin etməklə yanaşı, qonşu təsərrüfatlardan yarpaq üçün gələnləri də əliboş qaytarmadıq. Tut bağlarının sahəsini daha da genişləndirib 26 min ədəd tingdən ibarət yeni bağ salmışıq. Bu da imkan verir ki, gələn il barama istehsalını azı iki dəfə artıraq.

Belə işgüzarlığın nəticəsidir ki, Tərtər rayonunun həm mərkəzi, həm də kəndləri sürətlə inkişaf edir, aydan-aya, ildənilə dəyişib daha abad olur.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

## "Azərpoçt" MMC üzrə Tabeli poçt müəssisələrinin təminatı üçün *açıq tender elan edir*

**Tender 4 (dörd) LOT üzrə keçirilir:**

**LOT 1.** Dəftərxana məhsullarının alınması.
**LOT 2.** Mebel avadanlıqlarının alınması.
**LOT 3.** Printer avadanlıqlarının alınması.
**LOT 4.** Kartriclərin dolumu və təmiri xidmətinin alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 72 ünvanında yerləşən "Azərpoçt" MMC-dən (əlaqələndirici şəxs İsmayılov Oktay, telefon: 493-56-00 (240)) ala bilərlər.

**I LOT üzrə - 300 manat**
**II LOT üzrə - 300 manat**
**III LOT üzrə - 500 manat**
**IV LOT üzrə - 300 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**"Azərpoçt" MMC**
**Kod: 690001**
**M\H: AZ76NABZ01350100000000094944**
**VÖEN: 9900037711**
**S.W.I.F.T: AZPOAZ 22**
**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Hesablaşma hesabı: AZ82AZPO99995381000420000125**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərfin açıldığı gündən sonra 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə peşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **07 fevral 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 18 fevral **2019-cu il saat 18:00-a** qədər Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri **19 fevral 2019-cu il saat 11:00-da** Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 16.01.2019-cu il tarixdə keçirilməsi nəzərdə tutulan" LOT-2 Texnoloji korpusda və 20 stansiyada SCADA proqram təminatı əsasında 220 V dəyişən cərəyan və 24V sabit cərəyən şəbəkələrinin elektrik parametrlərinin ötürülməsi işlərinin satın alınması" üzrə açıq tenderin vaxtı 30.01.2019-cu il tarixə saat 15:30-a keçirilmişdir. Bununla əlaqədar, iddiaçılar tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 21.01.2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 29.01.2019-cu il saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına, "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Əfqanıstanda şaxtada uçqun



Əfqanıstanın Badaxşan əyalətinin Kohistan rayonundakı qızıl çıxarılan şaxtada uçqun nəticəsində azı 40 nəfər həlak olmuşdur. Bu barədə "Pajvok" agentliyi xəbər verir.

Məlumata görə, həmin vaxt şaxtada 50 nəfərdən çox işçi olmuşdur. Hadisənin güclü qar yağıntılarına görə baş verdiyi bildirilir. On beş nəfər xilas edilmişdir. Onlardan çoxunun vəziyyəti ağırdır.

## Ötən il dünyada qaçqınların və miqrantların sayı artıb



Ötən ilin ortalarında dünyada 68,8 milyona yaxın miqrant, məcburi köçkün və qaçqın qeydə alınmışdır. Bu, 2017-ci ilin axırlarına olan göstərici ilə müqayisədə 300 min nəfər çoxdur. Bu barədə BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığı (UNHCR) məlumat verir.

"Alman dalğası" radiostansiyasının xəbərinə görə, Almaniyada sığınacaq almaq üçün müraciətlərin sayı 20 faiz azalmışdır. 2018-ci ilin ilk altı ayında 81,8 min ərizə verilmişdir. 2017-ci ilin həmin dövründə müvafiq ərizələrin sayı 101 min, 2016-cı ildə 387,7 min olmuşdur.

UNHCR-in məlumatına görə, hazırda Banqladeşdə və Livanda miqrasiya böhranı baş verir. Qeyd olunur ki, öz ölkələrini tərk etmiş suriyalıların əksəriyyəti Türkiyədə (3,6 milyon), Livanda (968,1 min) və İordaniyada (667,2 min) yaşayır. Almaniyada 514 min suriyalı məskunlaşmışdır.

## İran-İraq sərhədində güclü zəlzələ



İranın Kermanşah əyalətində 5,9 bal gücündə zəlzələ qeydə alınmışdır. Yeraltı təkanlar qonşu İraqda da hiss edilmişdir. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.

Yeraltı təkanlar İraqın paytaxtı Bağdadın 136 kilometr şimal-şərqində və İranın İlam şəhərindən 87 kilometr şimal-qərbdə başlamışdır.

Tehran Universitetinin Seysmoloji Mərkəzi xəbər verir ki, zəlzələnin ocağı Gilani qərb şəhəri yaxınlığında 40 kilometr dərinlikdə olmuşdur. Bundan sonra 12 afterşok qeydə alınmışdır. Yeraltı təkanlar Bağdadda, Ərbildə və Süleymaniyyədə hiss olunmuşdur. Tələfat və dağıntılar barədə hələ ki məlumat verilmir.

## "Əl-Qaidə"nin təhlükəli terrorçusu məhv edilib



ABŞ-ın Yəməndə endirdiyi aviasiya zərbəsi nəticəsində ən çox axtarılan terrorçulardan biri Camal Bədavi məhv edilmişdir. Bu barədə ABŞ Prezidenti Donald Tramp öz Tvitterində yazmışdır.

CNN telekanalının xəbərinə görə, terrorçu yanvarın 1-də Marib əyalətində öldürülmüşdür.

"Əl-Qaidə" terrorçu qruplaşmasının üzvü olan Bədavi 2000-ci il oktyabrın 12-də Ədən limanında ABŞ-ın beşinci donanmasının tərkibindəki "Koul" gəmisinə hücumda ittiham olunurdu. Həmin vaxt gəmiyə minalanmış mühərrikli qayıq çırpılmış, nəticədə 17 amerikalı dənizçi həlak olmuş, 39-u yaralanmışdır.

Bədavi iki dəfə həbs edilmiş, lakin hər dəfə də qaçmağa müvəffəq olmuşdur. ABŞ terrorçunun başına 5 milyon dollar mükafat təyin etmişdir.

## Tayvanın hakim partiyasına yeni sədr seçildi



Tayvanın hakim Demokrat Tərəqqi Partiyası Çjo Juntayı sədr vəzifəsinə seçmişdir. Bu barədə partiya sədri vəzifəsini müvəqqəti icra edən Lin Yuçana istinadən "Taibei Times" qəzeti xəbər verir.

Bildirilir ki, sabiq sədr Say İnven ötən il noyabrın axırlarında partiyanın bələdiyyə seçkilərində məğlubiyyətindən sonra istefa vermişdir.

Çjo Juntay 72,6 faiz səs qazanaraq öz rəqibi Yu İnluna qalib gəlmişdir. Adanın İctimai rəy fondunun sədri Yu İnluna 27,4 faiz səs verilmişdir. Sabah yeni sədrin andiçmə mərasimi keçiriləcək.

Müxtəlif vəzifələrdə çalışmış Çjo Juntay 2017-ci ildən Tayvan hökumənin Baş katibi təyin olunmuşdur.

## Azercell abunəçilərinin nəzərinə

**08.01.2019-cu il** tarixindən etibarən "Azercell" Fakturalı xəttə aid SOCAR və Dövlətcell tarif paketlərində 15 saniyəlik, Hər Yerə tarif paketində isə 30 saniyəlik hesablama intervalı tətbiq olunacaq. Bundan əlavə, Biznes200 tarif paketinə abunəlik dayandırılacaq.

## Atəşkəs rejimi 28 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan, Ağbulaq, Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Şirvanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## *Dövlət Sərhəd Xidməti:* Yanvarın əvvəlindən "Qazax" sərhəd dəstəsinin döyüş məntəqələri düşmən bölmələri tərəfindən 81 dəfə atəşə tutulub

Qazax və Ağstafa rayonları ərazisində düşmənlə təmas xəttində xidməti-döyüş fəaliyyətini həyata keçirən sərhəd döyüş məntəqələri istiqamətində Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejiminin pozulması halları davam etməkdədir.

Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, yanvarın əvvəlindən indiyədək DSX Sərhəd Qoşunlarının "Qazax" sərhəd dəstəsinin sərhəd döyüş məntəqələri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən 81 dəfə atəşə tutulub. Yanvarın 6-da saat 15:35 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələrindən Qazax rayonunun Kəmərli kəndi yaxınlığındakı sərhəd döyüş məntəqəsinə doğru 7,62 millimetr çaplı "SVD" snayper silahından açılmış atəş nəticəsində güllə dövlət sərhəd xəttindən 450 metr məsafədə mühəndis işləri aparan, mülki şəxs tərəfindən idarə olunan ekskavatorun çalovuna dəyib və kabinənin sağ şüşəsini sındırıb.

Hadisə nəticəsində xəsarət alan olmayıb.

# Paytaxtda havanın çiskinli və küləkli olacağı proqnozlaşdırılır

Ölkə ərazisində yanvarın 8-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və axşam bəzi yerlərdə havanın çiskinli olacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 3-5°, gündüz 7-10° isti, Bakıda gecə 3-5°, gündüz 8-10° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 767 millimetr civə sütunundan 763 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 75-85, gündüz 60-70 faiz təşkil edəcək.

Sinoptiklərin xəbərdarlığına görə, yanvarın 7-si axşamdan 8-i gündüzədək Bakıda və Abşeron yarımadasında arabir güclənən şimal-qərb küləyi əsəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gecə və axşam bəzi yerlərdə yağış, dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Bəzi yerlərdə arabir güclənən qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 7-11° isti, dağlarda gecə 1-6° şaxta, gündüz 2-6° isti olacağı bildirilir.




Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi yerlərdə qar yağacağı ehtimalı var. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5°, dağlıq ərazilərdə 8-10° şaxta, gündüz 5-10° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcərdə, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6° şaxta, gündüz 2-6° isti olacağı ehtimalı var.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə duman, çiskin olacaq. Qərb küləyi əsəcək, arabir sürətlənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 6-10° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi yerlərdə havanın yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək, gündüz 3-8° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı proqnozlaşdırılır.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi şərq rayonlarında yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, arabir sürətlənəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 7-11° isti olacağı bildirilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi yerlərdə yağış yağacağı gözlənilir. Dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 3-5°, gündüz 8-10° isti, dağlarda gecə 3° şaxtadan 2° isti, gündüz 4-7° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatı və İşlər İdarəsinin kollektivləri Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyevə əzizi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyevə əzizi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov ailəsi ilə birlikdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyevə əzizi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Milli Məclisin deputatı Ağalar Vəliyevə əzizi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Ziyad Səmədzadə, Xanhüseyn Kazımlı, Cavid Qurbanov, Rüfət Quliyev, Əli Məsimli, İlham Əliyev, Əsabil Qasımov, Tahir Mirkişili, Vahid Əhmədov, Mahir Abbaszadə, Aydın Hüseynov, Elçin Quliyev, Mirzəcan Xəlilov, İmamverdi İsmayılov, Şəmsəddin Hacıyev və İqbal Məmmədov komitənin sədr müavini Ağalar Vəliyevə əzizi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatı və Həmkarlar təşkilatı Nazirlər Kabineti Aparatının əməkdaşı İradə Süleymanovaya qardaşı
**ŞAKİR MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru
**ÇİNGİZ MANSUR OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Allahverdi Mehdiyevə əzizi
**MAHMUD QULİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru
**ÇİNGİZ ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları Akif Quliyevə əmisi
**MAHMUD QULİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru
**ÇİNGİZ ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin kollektivi Milli Məclisin deputatı Ağalar Vəliyevə və səhmdar cəmiyyətin idarə heyətinin sədr müavini Pərviz Vəliyevə əzizləri
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Bələdiyyələrlə İş Mərkəzinin rəisi
**ZAHİR MƏMMƏD OĞLU ƏLİZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi
**ZAHİR ƏLİZADƏNİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Anatomiya və tibbi terminologiya kafedrasının müdiri, professor Vaqif Şadlinskiyə qardaşı
**AZƏR ŞADLİNSKİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Texniki Universitetinin rektorluğu Həmkarlar İttifaqı Komitəsinin sədri Akif Cahangirova dayısı
**AZƏR ŞADLİNSKİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Dəniz Akademiyasının kollektivi ADDA-nın rektoru
**ÇİNGİZ MANSUR OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru
**ÇİNGİZ MANSUR OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7512
Sifariş 4
Qiyməti 40 qəpik